№ 253 ISSN 1027-3875 15 sentyabr 2008

KHAZAR VIEW

XƏZƏR XƏBƏR



ELMİ-KÜTLƏVİ, BƏDİİ-PUBLİSİSTİK TOPLU

www.khazar.org

ELMİ-KÜTLƏVİ,
BƏDİİ-PUBLİSİSTİK
TOPLU

1995-ci ilin
yanvarından ayda 2 dəfə çıxır

Təsisçi:
XƏZƏR UNİVERSİTƏSİ

Baş redaktor:
Hamlet İSAXANLI

Baş redaktor müavini:
Əlirza BALAYEV

Redaksiya heyəti:
Camal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Cəmil HƏSƏNLİ
Bəhlul ABDULLA
Nizami CƏFƏROV
Əfqan ABDULLAYEV
İsmət ƏHMƏDOV

Rəssam:
Rafiq ƏBDÜLRƏHİMOV

Kompüter tərtibatçısı:
Əminə M.Rzaqızı
Fotomüxbir:
Xeyrulla HACƏLİYEV

Ünvanımız:
Bakı, Məhsəti küçəsi 11,
("Neftçilər" metrosunun yanı)
Faks: 498-93-79
Telefon: 421-79-16
421-10-93

Şəhadətnamə: 255
İndeks: 67178
Sifariş: 190
Tiraj: 3000

Müəlliflərlə
redaksiyanın mövqeyi
üst-üstə düşməyə bilər
Əlyazmalar geri qaytarılmır
Xəzər Universitəsi
mətbəəsində çap edilmişdir

SCIENTIFIC-POPULAR
LITERARY-PUBLICISTIC
COLLECTION

It has been publishing twice
a month since January, 1995

Founder:
KHAZAR UNIVERSITY

Editor-in-chief:
Hamlet ISAXANLI

Associate editor:
Alirza BALAYEV

Editorial member:
Jamal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Jamil HASANLI
Bahlul ABDULLA
Nizami JAFAROV
Afgan ABDULLAYEV
İsmat AHMADOV

Design by:
Rafig ABDULRAHIMOV

Computer graphics:
Amina M. Rzaqizi
Photoreporter:
Kheyrulla HACALIYEV

Address:
11 Mahsati str., Baku,
(near the "Neftchilar" metro)
Fax: 498-93-79
Phone: 421-79-16
421-10-93

Certificate: 255
Index: 67178
Order: 190
Copies: 3000

The opinions of authors
and editors
could be independent
Manuscripts are not returned
Published by
Khazar University Press

OXUYUN
Bu nömrədə



YENİ TƏDRİS İLİNİZ MÜBARƏK! 4

Abdullah Gül: "Azərbaycanın problemi mənim öz problemimdir" 8





Hamlet İsaxanlı 12

Futbol ehtirası, musiqi təranəsi və poetik hisslər bir-birinə qovuşanda

Ədalət VƏLİYEV

XX ƏSRİN SONUNDA MİLLİ ÖZÜNÜDƏRK PROSESİ VƏ «AZƏRBAYCAN CƏMİYYƏTİNDƏ TEATRIN YERİ» PROBLEMİNİN AKTUALLAŞMASI 22



Firəngiz NƏSİROVA

İNAMIMIZ QALİB GƏLDİ 27

İDMANÇILARIMIZIN PEKİN PARALİMPİADASINDA UĞURLU ÇIXIŞI



UŞAQ DÜNYASI



34

TƏLƏBƏ SORĞUSU 7

YENİ DƏRS İLİNİZ MÜBARƏK!

Salam, hörmətli Hamlet müəllim!

Sizi və bütün "Xəzər" ailəsini – müəllim, tələbə və digər əməkdaşları yeni – 2008-2009-cu dərs ilinin başlanması münasibətilə təbrik edir, qarşıdan gələn dərs ilində hər birinizə daha böyük müvəffəqiyyətlər arzulayıram.

Xüsusi olaraq, Xəzər universitəsinə bu il qəbul olunmuş tələbələri – birinci il tələbələrini təbrik edir, onlara "Xəzər"in adına layiq tələbə olmalarını arzulayıram! İnanıram ki, onların da ən yaxın gələcəkdə səsi-soraği dünyanın müxtəlif universitetlərindən, böyük biznes mərkəzlərindən gələcək!

Təkrar hər birinizə sonsuz uğurlar və yeni-yeni zirvələrə çatmaq diləyi ilə...

Hörmət və ehtiramla,

Cabir Məmmədov

Saloniki/Yunanıstan

YENİ TƏDRİS İLİNİZ MÜBARƏK!



Xəzər Universitəsinə 2008-2009-cu tədris ili üçün tələbə qəbulu başa çatmışdır. Universitənin qəbul və tələbə şöbəsinin müdiri İsaxan İsaxanlı növbəti qəbulun nəticələrini şərh edir:

– Bu il Xəzər Universitəsinə 295 plan yerinə 14 ixtisas üzrə qəbul aparılıb. Birinci qrup üzrə 3 ixtisasa (neft-qaz yataqlarının işlənməsi və istismarı, kompüter riyaziyyatı, sənaye və mülki tikinti), ikinci qrup üzrə 4 ixtisasa (beynəlxalq iqtisadi münasibətlər, maliyyə və kredit, mühasibat uçotu və audit, biznesin təşkili və idarə olunması) qəbul aparılmışdır. Ən çox üçüncü qrup üzrə – 7 ixtisasa tələbə qəbul olunub. Bunlar azərbaycan dili və ədəbiyyatı, ingilis dili və ədəbiyyatı, tərcümə, regionşünaslıq, politologiya, jurnalistika, ibtidai təhsilin pedoqogika və metodikası ixtisaslarıdır.

295 plan yerindən 40-ı birinci qrupa, 80-i ikinci qrupa, qalan yerlər isə üçüncü qrupa ayrılmışdı. Qəbul, bildiyimiz kimi, həmişə iki turda aparılır; birinci turdan boş qalan yerlər üçün ikinci tur elan olunur və müsabiqə aparılır. Birinci turda 231, ikinci turda isə 49 nəfər qəbul olundu. 15 yer isə boş qaldı. Amma prinsipcə indi qəbul davam edir və sentyabrın 15-nə qədər bu yerlərin də dolması gözlənilir.

Qəbul olunmuş 280 nəfərdən 231 nəfər Azərbaycan bölməsinin, 49 nəfər isə rus bölməsinin tələbələridir. Amma, bildiyimiz kimi, bizim universitəmizdə rus və Azərbaycan bölməsi yalnız bir il müddətində mövcud olur. Çünki artıq ikinci ildən dərsləri ingilis dilində tədris etməyə çalışırıq və beləliklə də, rus və Azərbaycan bölmələri faktik olaraq aradan qalxmış olur.

Bir mühüm məsələni də qeyd edim ki, qəbul imtahanlarında müəyyən bal həddindən yuxarı bal toplayan tələbələrə təhsil haqqının ödənilməsində güzəştlər edirik. Toplanmış ballara görə güzəştlər müxtəlifdir və hər il Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının qəbuldan öncə plan yerlərini dərc etdiyi "Abituriyent" jurnalında bu güzəştlər dəqiq göstərilir. Bu güzəştləri belə müəyyənləşdirmişik: 500-549 arası bal toplayanlara 25%, 550-599 arası bal toplayanlara 50%, 600-649 arası bal toplayan tələbələrə isə 75% güzəşt olunur. 650 baldan yuxarı toplayan tələbə isə təhsil haqqından 100% azaddır. Hər il bizdə belə bal toplayan tələbələr olur. Bu il də 13 nəfər bu güzəştlərdən yararlana biləcək. Bu il güzəşt qazananlar əsasən iki fakültənin – Iqtisadiyyat və menecment (ikinci qrup) və Humanitar və sosial elmlər fakültələrinin (üçüncü qrup) tələbələridir. Qaydalarımıza görə, bu güzəştlər yalnız bir il deyil, bütün təhsil müddəti ərzində tətbiq olunur. Amma belə bir qaydamız da var ki, universitəmizə 500-dən yuxarı bal toplayıb qəbul olunan tələbələrdən kimsə burada oxuduğu müddətdə yaxşı oxumazsa, dərslərində yaxşı nəticələr göstərməzsə, biz verdiyimiz güzəştlərin ləğv olunması məsələsinə baxa bilərik. Universitəmizə qəbul olunan tələbələrə hər il yeni dərs ili başlayanda paylanan yaddaş kitabçasında bu barədə məlumat verilmişdir. Ancaq indiyədək belə hal olmayıb. Faktik olaraq yüksək ballarla qəbul olan tələbələr təhsillərində də yüksək nəticələr göstərirlər.

Yeni dərs ilinin başlanması ilə əlaqədar hər il sentyabrın 15-də universitədə açılış mərasimi olur, yeni qəbul olunmuş tələbələrə tələbə biletləri də həmin gün təqdim olunur. Yüksək balla qəbul olunan tələbələrə tələbə biletlərini rektor, professor Hamlet İsaxanlı təqdim edir. Elə həmin gün yeni qəbul olunan tələbələrin ingilis dili səviyyəsini müəyyənləşdirmək və onları qruplara yerləşdirmək üçün ingilis dilindən yerləşdirmə (placement) imtahanı keçirilir. Beləliklə də, dərs ili başlanır.

Sonda universitəmizə yeni qəbul olunmuş tələbələri səmimi qəlbdən təbrik edir, onlara və digər tələbələrimizə təhsildə müvəffəqiyyətlər arzulayıram.

"Xəzər Xəbər" də bu təbrikə qoşulur və universitəyə qəbulda 550-dən çox bal toplamış 7 tələbə haqqında müxbirmizin hazırladığı yazını oxucularımıza təqdim edirik.

UĞURUN BAŞLANĞICI: 550 BALDAN YUXARI

HÜMBƏTOVA NƏRMİN RAFİQ QIZI




– 1991-ci il iyul ayinin 3-də Baki şəhərində anadan olmuşam.1997-ci ildə 96 nömrəli məktəbin 1-ci sinfinə getmiş və 2008-ci ildə 11-ci sinfi bitirmişəm.

Ali məktəblərə qəbul imtahanında iştirak edib, 567 bal yiğmişam. Xəzər Universitəsinin ümumi iqtisadiyyat fakültəsinə qəbul olunmuşam.

"Xəzər"ə gəlməyim heç də təsadüfi deyil. Çünki mən bu universitə haqqinda çox eşitmişdim. Bilirdim ki, Xəzər Universitəsi həm Azərbaycanda, həm də Azərbaycandan kənarda özünəməxsus yeri olan bir ali məktəbdir, burada başqa universitetlərdən fərqli olaraq, ingilis dili ilə yanaşi, başqa bir xarici dil öyrənmək imkani vardir. "Xəzər", həmçinin, təhsildə fərqlənən tələbələri bir sira xarici ölkələrə göndərmək, gələcəkdə isə onları işlə təmin etmək imkanina malikdir.

Arzum budur ki, universitəni müvəffəqiyyətlə bitirib, gələcəkdə bir iqtisadçi kimi xalqimin xidmətində olum.



MƏHƏRRƏMOV KƏNAN RAMİZ OĞLU

– 1990-cı il sentyabrın 4-də Bakı şəhərində anadan olmuşam. 95 nömrəli məktəbi bitirmişəm. 2007-ci ildə tətbiqi iqtisadiyyat üzrə keçirilən respublika olimpiadasında məktəb komandamızın tərkibində (3 nəfər) 2-ci yeri tutmuşam. Buna görə də, 2 həftə ərzində xarici şirkətlərin birinə (AİG şirkətinə) təcrübə qazanmaq məqsədilə dəvət olundum.


Bu il 557 balla Xəzər Universitəsinin ümumi iqtisadiyyat fakültəsinə qəbul olunmuşam. Bu universitəni seçməyimin əsas səbəbləri odur ki, burada təhsil ingilis dilində aparılır, səviyyəsi daha yüksəkdir, həm də xarici universitet və şirkətlərlə geniş əlaqələr var.

ABBASLI MƏLƏK İLHAM QIZI



–1990-cı il iyulun 4-də Bakı şəhərində anadan olmuşam.1997-ci ildə Bakı şəhərindəki 153 nömrəli orta məktəbin birinci sinfinə getmiş, 2008-ci ildə həmin məktəbi əla qiymətlərlə bitirmişəm.

Qəbul imtahanlarında 630 bal toplayıb, Xəzər Universitəsinə qəbul olunmuşam. Bu universitəni seçməyimə səbəb yüksək təhsil almaq, ixtisasıma dərindən yiyələnməkdir. Xəzər Universitəsi haqqinda əvvələr də məlumatlı olmuşam. Televiziyadan universitənin rektoru professor Hamlet İsaxanlının burada fənlərin tədrisi barədə olan söhbətlərini daim maraqla izləmişəm və bilirəm ki, buranı bitirən tələbələr respublikamızın qabaqcıl şirkətlərində çalışırlar.



MIKAİLOV NURLAN ŞAMİL OĞLU

– 1991-ci il mayın 29-da Bakı şəhərində anadan olmuşam. VIII sinfə kimi 269 nömrəli orta məktəbdə təhsil almışam. 2005-ci ildən 287 saylı "Zəkalar" liseyində təhsilimi davam etdirmişəm. 2008-ci ildə orta məktəbi bitirmişəm və 619 balla Xəzər Universitəsinin biznesin təşkili və idarə olunması fakültəsinə qəbul olunmuşam.

Xəzər Universitəsini seçməyimin səbəbləri ondan ibarətdir ki, "Xəzər"də rüşvət və ya buna bənzər digər hallara rast gəlinmir, tələbələrə münasibətdə ayrı-seçkiliyə yol verilmir. Bir sözlə, oxuyanın zəhmətinə qiymət verilir. Bundan başqa, "Xəzər"də təhsilin ingilis dilində olması da məni cəlb etmiş və onu da bilirəm ki, universitə məzunlarının işlə təmin olunmasında onlara yardım göstərmək imkanına malikdir.

"Xəzər"dən gözlədiyim maksimum dərəcədə gözəl təhsil və xaricə çıxa bilməyim üçün imkanın yaradılmasıdır.

CABAROVA MƏRYƏM ELXAN QIZI



– 1990-cı il sentyabrın 23-də Baki şəhərində anadan olmuşam. 1997-ci ildə Baki şəhərindəki 100 nömrəli orta məktəbin birinci sinfinə daxil olmuşam. Uşaqlıqdan dərs oxumağı çox sevirdim. Mənim məqsədim o idi ki, instituta daxil olum və təhsilimi davam etdirim. Və mən arzuma çatdim.

2008-ci ildə məktəbi bitirdim və 623 bal ilə Xəzər Univirsitəsinin regionşünasliq (Amerika, Britaniya) fakültəsinə daxil oldum. Burada mən bütun gücümi ancaq oxumağıma sərf edəcək və çalişacağam ki, əla oxuyum.



XƏLİLOV RƏŞAD BƏDRƏDDİN OĞLU

– 1991-ci il iyunun 27-də Qax rayonunda anadan olmuşam. Bakı şəhərindəki 160 nömrəli orta məktəbi bitirmişəm. Qəbul imtahanlarında 550 bal toplayaraq, Xəzər Universitəsinin ümumi iqtisadiyyat fakültəsinə daxil olmuşam.

Xəzər Universtəsini seçməyimdə dostlarım və qohumlarım məsləhətçim olublar. Onlardan eşitmişəm ki, "Xəzər"də fənlər ixtisasını dərindən bilən müəllimlər tərəfindən yüksək səviyyədə tədris olunur, təhsillərini xarici ölkələrin universitetlərində davam etdirmək üçün tələbələrə imkan yaradılır, ən əsası isə, burada rüşvət keçmir. Əlbəttə, "Xəzər"də təhsilin ingilis dilində aparılması da seçimimdə böyük rol oynamışdır.

İxtisas seçməkdə də yenə dostlarımdan, həmçnin qardaşımdan ruhlanmışam. Qardaşım Vüsal Azərbaycan Dövlət İqtisadiyyat Universitetinin üçüncü kursunda maliyyə-kredit ixtisası üzrə təhsil alır.

Təhsil illərinin asan olmayacağını bilirəm. Lakin ümidvaram ki, öz səyim və müəllimlərimin köməyi ilə mən bütün çətinlikləri dəf edib, layiqli mütəxəssis olacağam.

BAXŞIYEVA NİGAR SADIQ QIZI



– 1990-cı il aprelin 24-də Bakı şəhərində doğulmuşam. 2008-ci ildə Ağdaş rayonundakı 2 nömrəli Nizami adına orta məktəbi bitirmişəm.

Qəbul imtahanlarına böyük həvəs və məsuliyyətlə hazırlaşmışdım. Sevinirəm ki, səyim hədər getmədi və mən 563 bal toplayıb, Xəzər Universitəsinin ümumi iqtisadiyyat fakültəsinə daxil olmuşam.

İqtisadiyyat ixtisasını seçməyim isə həmişə ən çətin işlərə həvəs göstərməyimlə əlaqədardır. İxtisasca iqtisadçı olan nənən oxuduğu kitabdan mənə danışmışdı ki, İngiltərənin dövlət işində ən təcrübəli simalarından olmuş Çörçill deyərmiş: iqtisadi problemlə üzləşəndə özümü meşədə azmış uşaq kimi hiss edirəm. Ümidvaram ki, "Xəzər"də elə təhsil ala biləcəyəm ki, bu çətin sahənin yaxşı mütəxəssisi olum.

TƏLƏBƏ SORĞUSU

Yaz semestri - 2008

Əziz oxucularımız!

Bildiyiniz kimi, Xəzər Universitəsində hər semestrin sonunda tələbələrin arzu və təkliflərini öyrənmək məqsədilə "Tələbə sorğusu" keçirilir. Sorğunun nəticələrinə olan marağı nəzərə alaraq, bəzi fikirləri nəzərinizə çatdırırıq.

- *Hər gün, hər dərs dərsə gecikir. Hərdən aqressiv olur.*
- *Tələbə müəllimədən qələm istədi, müəllimə auditoriyanın içində qələmi tələbənin üstünə atdı.I semestr hər şey əla idi, lakin hər şey II semestrə qədərmiş, indi səhər dərsə gələndə dua edirəm ki, bir şey baş versin, müəllimə dərsə gec gəlsin. Oğlanlara qarşı elə mehribandır ki, amma qızlarla düşməndir.*
- *Özünü elə aparır ki, elə bil alçaq dağları o yaradıb. Adam bir az sadə olar. Adamın vəzifəsini qaldıranda nolar ki?!*
- *Bu fənn maraqlıdır, amma bu dərsi keçəndən mənim öz fikirlərim çox qarışıb.*
- *O bizim də özü kimi filosof olmağımızı istəyir.*
- *Bir müəllim bizim filosofluq, digəri isə astroloqluq etməyimizi güclü tələb edir. Mümkünsə, rektor bu məsələyə baxsın!*
- *Çalışır ki, sinifdə öyrədici mühit yaratsın, amma tələbələr buna imkan vermirlər.*
- *Yaxşı müəllimdir. Ateistik fikirləri məni yorub. Fəlsəfəni dindən fərqli izah etsin.*
- *Mənim xarakterca dəyişməyimə səbəb oldu.*
- *Dediyi sözün üstündə durmur. Deyir öz fikrini yaz, yazıram, amma...*
- *Sizi çox istəyirik. Aldığınız maaş sizə halal olsun.*
- *Çox ləzzətli müəllimdir. Mən hələ belə bir müəllim görməmişəm.*
- *Onu çox sevirəm, çünki nə bilirsə onu bizə öyrətmək üçün can yandırır.*
- *Oğlanların qiymətlərini kəsir.*
- *I hope that you can open Italian 3, so we can continue our practice. Grazie!!!*
- *Xahiş edirik ki, dərs keçəndə az əl-qol hərəkətləri edəsiniz.*
- *Bu insanlar sadəcə biliyə qiymət verir.*
- *Dərsi yaxşı izah edir, amma tələbələrin tam öyrənib-öyrənmədiyinə fikir vermir.*
- *Hamı bu müəlliməni pisləyir, amma əslində çox yaxşıdır.*
- *Ən müsbət cəhəti odur ki, əsərləri gözəl danışır. Çox hissiyyatlıdır hər şeyə, bütün obrazları sevdirir.*
- *Bu müəllimə qədim müəllimlər kimi fikirləşir.*
- *Bu müəllimənin xarakterini bilmək qeyri-mümkündür.*
- *Dərsdən ziyadə hər şeydən xəbərimiz oldu.*
- *Müəllim yaxşıdır, amma dərs maraqsızdır. Dərsdə hamı yatır.*
- *İnsan kimi gözəl, mehriban ola bilərsiniz, amma müəllim kimi o sözləri deyə bilməyəcəyəm. Mən sizi müəllimliyə hazır görmürəm.*
- *Əvvəl yuxarı kurslar bu müəlliməni o qədər pisləmişdilər ki, hamımız qorxurduq, amma mehriban müəllimədir. Final imtahanının suallarını asan salsa, savab qazanar.*

(Ardı jurnalın sonrakı səhifələrində)

SİYASƏT

Abdullah Gül: "Azərbaycanın problemi mənim öz problemimdir"



Türkiyə prezidenti:

"Mən Azərbaycan xalqının qəlbinə dəyməmək üçün Ermənistana xüsusi avtomobilləri və mühafizəçilərimi 600 km əlavə yol qət etməklə Gürcüstandan göndərdim, Qarsdan yox".

Türkiyə prezidenti Abdullah Gül APA-nın müxbiri ilə müsahibəsində Ermənistana səfərinin nəticələrini və digər məsələləri şərh edir.

- Ermənistana səfərinizlə bağlı mediaya müəyyən qədər məlumat vermisiniz. Azərbaycan oxucularına daha nələr söyləmək istərdiniz?

- Əvvəlcə, bütün azərbaycanlı qardaşlarıma sevgi və məhəbbətimi göndərirəm. Onların bu səfəri böyük maraqla izlədiklərini bilirəm və bizdən əmin olmalarını istəyirəm. Şəxsən mən bizlərin ayrı dövlət, ancaq bir millət olduğumuza və bu şəkildə davam etməyin önəminə inanan adamam. Dünya xəritəsinə baxanda Qafqaz kiçik bir yer kimi görünür, lakin bu bölgənin çox böyük problemləri var. Bir ay əvvəl bölgədə daşların yerindən oynadığını gördük - ortaya Rusiya-Gürcüstan savaşı çıxdı. Hətta böyük dövlətlər də bu işin içinə girdi. Belə bir məqamda susub oturmaqla olmur, təşəbbüsü ələ almaq lazımdır. Öz bölgəmizin problemlərini həll etmək üçün ciddi-cəhd göstərməliyik. Mənim və hörmətli baş nazirimizin səfərlərinə bu çərçivədən baxmaq lazımdır. Məhz bu məqsədlə tam vaxtında "Qafqaz Sabitlik və Əməkdaşlıq Platforması" ideyası ilə çıxış etdik. Bölgənin önəmli ölkələri hərəkətə keçib bu məsələləri dialoq yolu ilə həll etmək üçün yeni həmlələr etməlidir. Bununla əlaqədar baş nazirimiz hörmətli Ərdoğan Rusiya, Gürcüstan və Azərbaycana gedərək bu mövzuları müzakirə etdi.

Əslində ortaya təsadüfi bir fürsət də çıxmışdı - dünya çempionatının seçmə mərhələsində Türkiyə ilə Ermənistan milli komandaları eyni qrupa düşmüşdü. Bu təsadüfdən sonra Ermənistan prezidenti Sarkisyan cəsur şəkildə məni İrəvana dəvət etdi. Ermənistan prezidentinin Türkiyə prezidentinə "gəl, bu matçı birlikdə izləyək" deməsi həqiqətən cəsarət istəyən bir addımdır. Biz orada bu işə qarşı olan daşnaklar və başqa qrupların olduğunu bilirik. Mən niyə bu təklifi qəbul etdim? Çünki bölgəmizdəki problemləri həll etmək üçün müzakirə aparmaq fürsətinin yarandığına inandım. Qarabağ probleminin, həmçinin Türkiyə ilə Ermənistan arasındakı

problemlərin müzakirəsi üçün bu fürsətdən istifadə etmək istədim. Doğrusu, bu səfəri həyata keçirməkdən məmnun oldum. Çünki dövlət adamları hər şeyi əvvəlcə yaxşıca ölçüb-biçməli, ondan sonra qərarlı hərəkət etməlidir. Problemləri dondursaq, daha da pis olar. Bu donmuş problemlər sonra de-fakto bir gerçək halına gəlir. Ona görə də, dövlət adamları cəsur şəkildə müzakirə aparmalıdır.

Qafqaz kimi kiçik bir torpaq sahəsində hamımız bir-birimizə çox bənzəyirik. Qovğa da etsək, münasibətlərimiz pis də olsa, tarixin və coğrafiyanın gətirib-gəldiyi müştərək tərəflərimiz var. Bölgədə əksəriyyət türkcə danışır və.ya bu dili anlayır – bu potensialı hərəkətə gətirmək və problemləri həll etmək lazımdır. Səfərim zamanı bu barədə prezident Sarkisyanla çox açıq şəkildə danışdım. Sizinlə danışdıqlarımı onunla daha açıq danışdım, Azərbaycanla Ermənistan arasındakı münaqişənin həll edilməsinin önəmini vurğuladım.

Bu səfər içində müzakirə etdiyim iki məsələdən biri Dağlıq Qarabağ məsələsi oldu. Sarkisyanla Türkiyə-Ermənistan sərhədinin açılmasına dair bir kəlmə belə danışmadıq. Mən Azərbaycan xalqının qəlbinə dəyməmək üçün Ermənistana xüsusi avtomobilləri və mühafizəçiilərimi 600 km əlavə yol qət etməklə Gürcüstandan göndərdim, Qarsdan yox.

- Ermənistan tərəfinin reaksiyası necə oldu?

- Serj Sarkisyan da bölgədəki problemlərin həllinə tərəfdar olduqlarını və bizlərin bu prosesdə iştirakından məmnun qalacaqlarını bildirdi. "Qafqaz Sabitlik və Əməkdaşlıq Platforması"na güclü dəstək verdiklərini, bunu regiondakı problemlərin həlli üçün bir fürsət kimi gördüklərini, Gürcüstanda yaşanan hadisələrdən sonra hamımızın dialoq içində olmağımızı vacib saydığını dedi. Hörmətli Əliyevlə də görüşdüklərini və təkrar görüşəcəklərini söylədi. Mən Sarkisyana realist olmağımızın gərəkliliyini bildirdim. Bu problemləri aradan qaldıracaq bir dialoq prosesi başlamalıdır. Dialoq bu gün olmasa, 30-40 il sonra olacaq, amma gələcək nəsillər bundan zərər görəcəklər. Sarkisyanın da xoş niyyətli olduğunu və səmimi danışdığını gördüm. İrəvandan böyük bir məmnuniyyətlə ayrıldım. İstər Türkiyədə, istərsə də Azərbaycanda hirsli düşünənlər ola bilər, mən bunların hamısını sayğı ilə qarşılayıram. Amma əminəm ki, bu təşəbbüs xoş nəticələr doğuracaq və onlar da sevinəcəklər. II Dünya müharibəsində Avropada 50 milyon insan öldü, ancaq indi Fransa ilə Almaniya ən yaxın müttəfiqlərdir. Ona görə də biz təkcə keçmişə deyil, gələcəyə də baxmalıyıq və gələcəyin önünü açmalıyıq.

Həm də Cənubi Qafqazda baş verən son hadisələr göstərdi ki, enerji təhlükəsizliyi vacib məsələlərdən biridir. Regionda gerçəkləşdirdiyimiz layihələr, o cümlədən Bakı-Tiflis-Ceyhan dönməzdir və davam edəcək. Kim digər layihələr təklif edirsə, müzakirə edə bilərik. Enerji təhlükəsizliyinin təmin olunması üçün hər bir dövlət lazımi addımlar atmalıdır. Biz həm də bölgədə hər bir dövlətin enerji məsələlərinə diqqətli yanaşmasının tərəfdarıyıq.

- Serj Sarkisyan prezident olduqdan sonra sələfindən fərqli siyasət yürütməyə başladı. Köçəryan Türkiyəni düşmən ölkə elan etdiyi halda, Sarkisyan Qərbmeylli bir siyasətçi profili ortaya qoydu. Ermənistana gedərkən Qərblə məsləhətləşmələriniz oldumu?

- Mən tamamilə müstəqil qərar vermişəm, bu səfərə qərar verməyimdə heç bir dövlətin təsiri olmayıb. Ancaq bir çox ölkədən təqdir almağımdan da məmnunam. Ermənistan artıq başa düşüb ki, dünyada hər kəslə, xüsusən də qonşu ölkələrlə əməkdaşlıq etmək məcburiyyətindədir. Əks təqdirdə, regionda sülh yaranmaz və Ermənistan bu sülhü əngəlləmiş ölkə vəziyyətinə düşər. Ermənistan bunu başa düşür. Onların bunu anlaması çox önəmlidir. S. Sarkisyanın simasında mən bu fürsətin çox yaxşı dəyərləndiriləcəyinə inanıram. Köhnə siyasəti geridə buraxmaq lazımdır. Hamımız region ölkələri olaraq irəliyə baxmalıyıq.

- Türkiyəni AŞ PA-da təmsil edərkən və xarici işlər naziri olarkən həmişə Türkiyədəki islahatları Avropa, Brüssel, Strasburq üçün yox, türk xalqı üçün həyata keçirdiyinizi bildirirdiniz. Bu gün Qərb analitikləri problemlərin həlli üçün demokratik islahatların dərinləşdirilməsinin zəruriliyini vurğulayırlar...

- Mən uzun illər Avropa Şurasında Türkiyəni təmsil etmişəm. Heydər Əliyevin necə

böyük qətiyyət göstərərək, Azərbaycanı Avropa Şurasına üzv etdiyi yadımdadır. Eyni yolu indi hörmətli İlham Əliyev davam etdirir. Demokratiya bir gecədə gələn proses deyil. Türkiyə 1948-ci ildə Avropa Şurasına üzv olub və qurumun qurucu üzvüdür. Görürsünüz ki, islahatları dərinləşdirdikcə bizdən yeni islahatlar tələb edilir. Azərbaycanda da bunun vaxtı gələcək. Bölgədə demokratiyanın olması sabitliyin və ölkələr arasında əməkdaşlığın daha da dərinləşməsini, xalqların rifah səviyyəsinin yüksəlməsini şərtləndirəcək. Ona görə də inanıram ki, Azərbaycan rəhbərliyi ölkədə demokratiyanın dərinləşməsi üçün əlindən gələni edəcək. Mən demokratiyanın inkişaf etməsindən son dərəcə məmnunluq duyacağam. Eyni zamanda İlham Əliyevin də bundan qurur duyacağına inanıram.

- Ermənistanın qondarma "soyqırım" iddiaları daha çox Qərbdən, oradakı erməni diasporundan gələn təzyiqlərlə bağlıdır. Bu təzyiqləri qırmağa müvəffəq ola biləcəksinizmi?

- Diaspora da Ermənistanın rifahı üçün çalışmalıdır və buna görə sevinməlidir. Ermənistanın öz qonşuları ilə yaxşı münasibət qurmasına diaspora da sevinməlidir. APA vasitəsilə Azərbaycan xalqına sayğı və sevgilərimi göndərirəm. Bizdən əmin olsunlar. Biz hər zaman Azərbaycanın arxasındayıq.

Azərbaycanın problemi mənim öz problemimdir, başqa heç bir şeydən söhbət gedə bilməz.

Dik Çeyni: "Biz ərazi bütövlüyü prinsipinə hörmət göstərilməsində israrlıyıq"



ABŞ-ın vitse-prezidenti Dik Çeyni Azərbaycana, Gürcüstana və Ukraynaya səfərindən sonra İtaliyada keçirilən Ambrosetti Forumunda çıxış edib.

D. Çeyni çıxışında Rusiyanı kəskin tənqid edib: "Bu torpaqlar bir vaxtlar totalitar Sovet imperiyasının hakimiyyəti altında olub. Lakin indi həmin torpaqlarda öz inkişaf kursuna malik olan və dünya ictimaiyyətinə inamla inteqrasiya edən müstəqil dövlətlər mövcuddur.

Gürcüstanda Rusiyanın hərbi müdaxiləsi ilə başlayan son hadisələr bizim dərindən inandığımız bəzi prinsiplərə ziddir. Rusiyanın hərbi qüvvələri müstəqil dövlətin beynəlxalq səviyyədə tanınmış sərhədlərini pozub, ölkədaxili münaqişəni qızışdırıb, günahsız dinc sakinləri qətlə yetirib və on minlərlə insanı öz evlərindən didərgin salıb. Bütün bunlar demokratik şəkildə seçilmiş hakimiyyətə malik olan və Qərbə tərəf istiqamət götürmüş dövlətə qarşı aparılıb. Birləşmiş Ştatlar və Avropanın bir çox ölkələri açıq bəyan etdilər ki, Rusiyanın atdığı addımlar sivil standartlara uyğun deyil və tamamilə qəbuledilməzdir. Rusiyanın Cənubi Osetiyanı və Abxaziyanı müstəqil dövlət kimi tanıması regiondakı vəziyyəti daha da pisləşdirib".

D. Çeyni bildirib ki, son hadisələr Rusiyanın daha böyük məqsədləri barədə narahatlıqları artırıb: "Qonşu ölkəyə qarşı qəddarlıq Rusiya hökumətinin narahatlıq törədən hərəkətlərinin ardıcıllığında sadəcə, sonuncusudur. Orta Asiyada, Qafqazda və digər regionlarda Rusiya enerji mənbələrindən manipulyasiya və güc aləti kimi istifadə olunmasını davam etdirir. Təəssüflər olsun ki, Rusiya liderləri azad fəaliyyət göstərən hökumətləri və demokratik dəyərləri öz ölkələrinin maraqları üçün təhlükə hesab edirlər. Sovet İttifaqının keçmiş xarici işlər naziri Eduard Şevardnadze deyib: "Rusiyanın məqsədi imperiyanı və sovet dövründə malik olduğu nüfuzunu bərpa etməkdir." Baş nazir Putin isə birbaşa bəyan edib ki, Sovet İttifaqının süqutu iyirminci əsrin ən böyük geosiyasi fəlakətidir".

ABŞ-ın vitse-prezidenti bildirib ki, hər hansı ölkəyə birtərəfli şəkildə digər ölkənin sərhədlərini dəyişmək imkanı verilsə, o, bunu gələcəkdə yenə edəcək: "Biz bilirik ki, əgər Avropada yeni sərhəd xətlərinin çəkilməsinə icazə verilsə, həmin xətt gələcəkdə yenə çəkiləcək. Biz ərazi bütövlüyü prinsipinə hörmət göstərilməsində israrlıyıq".

TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN BƏYANATI



Ermənistana səfərindən sonra martım 10-da Azərbaycana bir günlük işgüzar səfər edən Türkiyə Prezidenti Abdullah Gül Azərbaycan Prezidenti İlham Əliyevlə danışıqlar apardıqdan sonra mətbuat üçün bəyanat vermişdir.

Bu gün hörmətli Prezident İlham Əliyevlə, hər zaman olduğu kimi, çox gözəl bir görüş keçirdik. Türkiyə ilə Azərbaycanın qardaşlığı, dostluğu daimidir, əbədidir və bu çərçivədə əvvəlcə ikitərəfli əlaqələrimizi müzakirə etdik, daha sonra bölgə ilə əlaqədar məsələləri nəzərdən keçirdik. İkitərəfli münasibətlərimiz əsas mövzu olduğuna görə Türkiyə və Azərbaycan siyasi, iqtisadi və digər sahələrdə mükəmməl bir şəkildə əməkdaşlıq etməkdədir. Siyasi məsələlərdə Türkiyə daim Azərbaycanın yanında olmuşdur və hər zaman da yanında olacaqdır.

İqtisadi sahədə də, hörmətli Prezident Əliyevin dediyi kimi, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft, qaz və ən sonuncu, Qarsda bir hissəsinin təməlini qoyduğumuz, daha əvvəl isə Gürcüstanda başladığımız Bakı-Tbilisi-Qars dəmir yolu layihələri bütün dünyanın böyük bir hörmətlə təqdir etdiyi layihələrdir. İnanıram ki, dəmir yolunun da gələcəkdə tamamlanması, iqtisadi əlaqələrimizi daha da gücləndirmək və inkişaf etdirmək üçün böyük iradəyə və gücə sahibik.

Qafqazda meydana çıxan yeni vəziyyəti də bu gün çox əhatəli şəkildə nəzərdən keçirdik. Bu baxımdan bir neçə gün əvvəl milli komandaların oyununa baxmaq üçün Ermənistana etdiyim səfər və orada Ermənistan Prezidenti ilə keçirdiyim görüş haqqında hörmətli İlham Əliyevə əhatəli şəkildə məlumat verdim. Sizinlə səmimi olaraq bunu paylaşmaq istəyirəm ki, hörmətli Prezident Əliyevin Qafqaz regionu ilə bağlı çox realist, gerçək düşüncəli təhlili, doğrudan da, məndə çox böyük təəssürat yaratmışdır. Ona burada təqdir və təşəkkürümü ifadə etmək istəyirəm.

Ortada yeni bir vəziyyət əsas mövzudur. Gürcüstanda meydana çıxan hadisələrdən sonra dövlət adamları kimi, liderlər kimi vəziyyəti ən yaxşı şəkildə təhlil edib düzgün və səbatlı siyasi iradə göstərməyimiz lazımdır. Ümid edirəm ki, Ermənistan və Azərbaycan arasındakı Dağlıq Qarabağ məsələsi dialoq yolu ilə, anlayış və qarşılıqlı görüşlərlə həllini tapacaqdır. 17 ildir həllini tapmayan bu məsələnin çözümü üçün yeni fürsətlərin yarandığı fikrindəyik. Bu baxımdan Ermənistan səfərindən də ümidli dönmüşəm. Görüşlərlə bunun həll ediləcəyinə inanıram.

Şübhəsiz ki, işğal altındakı torpaqların tezliklə boşaldılması çox böyük addım olacaq və sülh, təhlükəsizlik bərqərar olduqda bu bölgədə çox böyük iqtisadi işbirliyi yaranacaqdır. Haqqında bəhs etdiyimiz boru xətləri, dəmir yolu bütün Qafqaz bölgəsini əhatə edəcəkdir. Ona görə də yeni bir fürsəti ən yaxşı şəkildə dəyərləndirmək və dondurulmuş münaqişələri bu şəkildə davam etdirmək yox, həll etmək lazımdır. Həll etmək üçün də yeni bir fürsətin ortaya çıxdığının qənaətindəyəm. Ümid edirəm ki, bölgə ölkələri bunu ən yaxşı şəkildə dəyərləndirəcək, sülh yollarını üstün tutacaqlar. Onsuz da Birləşmiş Millətlər Təşkilatının qətnamələri ortadadır – bütün bunlar nəzərə alınar və sonda düşmənçilik deyil, dostluq hökm sürər. Belə olarsa, bu, bölgədə hamımızın xeyrinə, bölgə xalqlarının hamısının xeyrinə olacaqdır. Ona görə də hər şeydən əvvəl xoş niyyətlə çalışmaq vacibdir və ümid edirəm ki, bütün dünya da bunu təqdirlə qarşılayar və dəstəkləyər.

Mən bu gün gördüyümüz çox səmimi, isti münasibətdən duyduğum məmnunluğu bir daha ifadə etmək istəyirəm. Bu baxımdan da bütün azərbaycanlı qardaşlarıma türk xalqının sevgisini, hörmət və ehtiramını çatdırmaq istəyirəm. Bu bir həqiqətdir ki, biz hamımız bir millətin parçalarıyıq və ayrı-ayrı dövlətlərin daxilindəyik. Həmrəyliyimiz sona qədər davam edəcəkdir.

Hamlet İsaxanlı

Futbol ehtirası, musiqi təranəsi və poetik hisslər bir-birinə qovuşanda

(Ramiz Mirzəyev haqqında xatirələrim)

Dünyasını dəyişmiş yaxın dost-yoldaş haqqında xatirə yazmaq tanıdığımız və ya tanımadığımız tarixi şəxslər haqqında yazmaqdan xeyli fərqli işdir. Cismani varlığı yox olan yaxşı tanıdığımız insan barədə düşünərkən gah həzin, kədərli, gah da işıqlı anlar, günlər, hadisələr xatirimizdə canlanır, bərabər keçirdiyimiz vaxta qayıdırıq, fikrimiz duyğularımızdan



qidalanır, şirin, bəzən turşməzə və sonluğu acı dadan xatirələr aləminə qapılırıq. Tarixi şəxslər haqqında yazı və ya söhbətimizi isə əsasən onların tarixə daxil olan işlərini qiymətləndirmək üzərində qururuq. Bu zaman onları şəxsən tanımadığımız halda xatirənin məsələyə dəxli olmur, onları bir qədər tanımış olanda isə, bu tanışlığı xatırlamaqla yanaşı, yenə də özümüzü tarixi rol məsələsi üzərində cəmləyirik. Tarixi şəxslər barədə yazı kənardan baxışdır, seyr etməkdir, fikir bildirməkdir. Tanışlar haqqında xatirə isə həyatımızın bir parçasıdır, bu xatirəni yazarkən biz o tanışımızla sanki yenə üz-üzə, göz-gözə dayanıb söhbət edirik, bəzən də öz-özümüzlə danışırıq. Tarixi şəxsiyyət barədə yazının tək qəhrəmanı həmin şəxsiyyətdir, dost-tanış haqqında xatirə-yazının isə iki əsas iştirakçısı var – həmin şəxs, yəni əsas qəhrəman və yazının müəllifi. Bu zaman yazı müəllifi bəzən istər-istəməz özü barədə də danışır, təvazökarlıqdan kənara çıxmalı olur.

Ramiz Mirzəyevin adını çox eşitmişdim, çoxları kimi mən də onun Neft-yağ zavodunun direktoru olduğunu bilirdim, digər tərəfdən isə onu ziyalılara, xüsusilə də musiqiçilərə göstərdiyi qayğı və digər xeyriyyəçilik fəaliyyətinə görə qiyabi olaraq tanıyırdım. Lakin onunla üz-üzə tanışlığımız hər ikimiz üçün bir hobbi olan futbol aləmində baş verdi, daha doğrusu, bir futbol qalmaqalı sayəsində biz ara-sıra görüşməyə başladıq.

1997-ci ildə Xəzər Universitəsinin bir neçə tələbəsi futbol komandası yaratmaq arzularını mənə bildirdilər. Bəzi kəşfiyyat və hazırlıq işlərindən sonra "Xəzər Universitəsi" adı ilə futbol klubu yaratmağa başladıq. Həvəskar klublar arasında ölkə çempionatına qatıldıq. İkinci

il xeyli uğurla çıxış edərək, ikinci yeri tutduq. Həvəskar klublar liqası peşəkar yüksək liqadan aşağıdakı yeganə liqa idi. Bunu əsas götürərək, yüksək liqada iştirak etmək fikri ilə AFFA-ya (Azərbaycan Futbol Federasiyaları Assosiasiyasına) müraciət etdik. Bu ərəfədə AFFA-nın siyasətindən narazı olan klublar 9-cu yüksək liqa çempionatını baykot etməyə çağırırdılar. Güman edirəm ki, bizi yüksək liqaya, hər şeydən əvvəl, məhz ölkə futbolunda yaranmış bu böhran nəticəsində buraxdılar (çempionatda oynamaq istəyən yeni komanda gəlirdi).

Yüksək liqada öz üçüncü çempionatımızda idik (yəni 11-ci ölkə çempionatında). AFFA-nın peşəkar klublarla münasibəti get-gedə pisləşirdi. Futbolçu transferlərindəki özbaşınalıq, klublarla hesablaşmamaq, hakimlərə qərəzli tapşırıqlar vermək bir adətə çevrilmişdi. Etiraz edənlərin içində ən tanınmış klubumuz olan "Neftçi"nin prezidenti Ramiz Mirzəyevin səsi daha çox eşidilirdi. Onun köməkçilərindən olan Məzahir Süleymanov da çox fəal idi. AFFA-nın öz klubu hesab etdiyi və hər cür (qanuni və qeyri-qanuni surətdə) dəstəklədiyi "Şəfa" klubu ziddiyyətlər reaksiyasını daha da qızışdıran katalizator rolunu oynayırdı. "Xəzər Universitəsi" klubu kimi "Şəfa" da əsasən gənclərdən təşkil olunmuşdu və bu iki komandanın yarışı həmişə gərgin keçirdi. Klubumuzun güclənməsi və ciddi rəqibə çevrilməsinə AFFA nəinki sevinmirdi (?), əksinə, oyunşu transferi və digər məsələlərdə tam qərəzli mövqe nümayiş etdirirdi. Bu iki rəqib komandanın növbəti görüşündə oyunu idarə edən baş hakimin ağlagəlməz dərəcədə haqsızlığı və qaydaları kobud surətdə pozması AFFA-klublar qarşıdurmasını zilə, zenitə qaldırdı. Qeyri-təbii, qızdırmalı hərəkətləri ilə AFFA tənzimləmə qabiliyyətini tam itirmiş kimi görünürdü, hadisələrə ancaq mənfi təsir edir, gərgin böhranı çıxılmaz vəziyyətə döndərirdi. Səngimək bilməyən haqsızlıqlara və dözülməz vəziyyətə ciddi etiraz əlaməti olaraq "Xəzər Universitəsi" klubu çempionatı tərk etmək qərarına gəldi.

2002-ci il aprelin 10-da AFFA-nın İcraiyyə Komitəsinin klub rəhbərlərinin iştirakı ilə keçirilən iclasında Ramiz Mirzəyev AFFA-nın "Xəzər Universitəsi" klubuna qarşı biabırçı hərəkətlərini pisləldi, həmçinin futbolçuların transferi məsələsindəki qanunsuzluqlara son qoymağa çağırdı. Vəziyyətin gərginləşdiyini görən AFFA prezidenti Fuad Musayev mübahisəli məsələlərin aprelin 11-də xüsusi iclasda müzakirə ediləcəyini elan etdi. İndi ikinci cəbhə açılmışdı – "Neftçi"nin prezidenti Ramiz Mirzəyev AFFA ilə münasibətləri açıq şəkildə ortaya qoymuş, qanunsuz hərəkətlərə görə cavab istəyirdi. AFFA-da iki məsələni bir-birindən ayırmaq, Ramiz Mirzəyev və məni təkləmək üçün xüsusi plan qurulmuşdu – iclası vitse-prezident Toğrul Hacıyev idarə edəcək, Fuad Musayev və mən isə həmin müddətdə təkbətək görüşdə öz məsələmizin həll variantını axtaracaqdıq. Nəticə AFFA-nın gözlədiyinin tam tərsi oldu. Mənim Fuad Musayevlə bir saatlıq görüşümdən heç nə alınmadı. Ramiz Mirzəyev isə iclasa öz hüquqçusu və idarə heyətinin bəzi üzvləri ilə birlikdə gəlibmiş, onların arasında kimsə guya AFFA üçün qəbuledilməz şəxs – "persona non-qrata" imiş. Həmin şəxsin iclasa buraxılmaması haqqında göstəriş varmış. Bunu heç cür qəbul etmək istəməyən Ramiz Mirzəyev "gedi-

riksə hamımız gedirik" – deyə, dəstəsi ilə bərabər, mən Fuad Musayevlə görüşdüyüm zaman, iclası, AFFA-nın iqamətgahını tərk edibmiş. AFFA ilə açıq münaqişə genişləndi. Bir neçə gün içində "Şəfa" klubu istisna olmaqla bütün yüksək liqa klubları bizim səsimizə səs verdilər və AFFA-nın rəhbərliyi altında ölkə çempionatında oynamaq istəmədiklərini bəyan etdilər. Beləliklə, klublar AFFA-nı baykot etmək qərarına gəldilər.

AFFA-nın yeniləşməsi, futbolumuzda qayda-qanunların işləməsi uğrunda təxminən ikiillik futbol macəralarımız Ramiz Mirzəyevlə məni bir-birimizə yaxınlaşdırdı. Münaqişənin həlli yolları barədə fikirlərimiz xeyli fərqli idi, mən bütün məsələlərin FİFA və UEFA ilə əməkdaşlıq vasitəsilə, addım-addım yoluna qoyulması tərəfdarı idim, Ramiz Mirzəyev isə daha kəskin mövqe tutmuşdu, o, AFFA-sız çempionat keçirmək, FİFA və UEFA-sız yeni futbol federasiyası qurmaq, yalnız bundan sonra danışıqlara girmək fikrində qəti görünürdü. Fikir müxtəlifliyinə baxmayaraq, tez-tez görüşməyə başladıq. Hadisələr əvvəlcə Ramiz müəllimin istədiyi məcrada işkişaf edirdi. Lakin, UEFA rəsmiləri, Azərbaycan hökumət nümayəndələri, AFFA və klubların iştirakı ilə keçirilən çoxtərəfli və çoxsaylı görüşlər nəticəsində müəyyən məqamlar ortaya çıxır, məsləhətləşmələr aparılır, irəliyə doğru hərəkət etmək planı müzakirə edilirdi.



Bir müddət keçdi, növbəti görüşlərimizdən biri "Neftçi" klubunun iqamətgahında keçirilirdi. İclasdan sonra Ramiz müəllim mənimlə söhbəti təklikdə davam etdirmək istədiyini bildirdi. "Mən Türkiyəyə adam göndərmişdim, bu davanı nə cür həll etmək barədə ordakı mühüm adamların fikrini bilmək istəyirdim, deyəsən onlar da sən deyəni deyirlər, "FİFA və UEFA-sız məsələni həll etmək mümkün deyil" deyirlər. Gəl görək neyləyəcəyik, elə edək ki, yeniləşmə olsun". Mən UEFA, AFFA və futbol klublarının nümayəndələrindən təşkil olunmuş altı nəfərdən ibarət birgə komissiyanın üzvü kimi İsveçrədə və Bakıda keçirilən görüşlərdə artıq Azərbaycan futbol ictimaiyyətinin ümumi rəyini bilərək iştirak edirdim. Düzdür, üzüzə dayanmış hər iki tərəf məsələni bir qədər siyasiləşdirmişdilər, amma, hər halda, işi Avropasayağı futbol prinsipləri ilə yoluna qoymağa çalışırdıq.

AFFA nizamnaməsinin yenidən yazılması, futbol ictimaiyyətinin fikirləri və hökumətin rəyi nəzərə alınmaqla AFFA-nın prezidenti və İcraiyyə Komitəsi yenidən seçildi. Ramiz Mirzəyev federasiyanın prezidenti oldu, İcraiyyə Komitəsinin tərkibində mən də vardım. Beləliklə, yeni şəkildə və yeni səviyyədə futbol işinə başladıq. İcraiyyə Komitəsinin ilk iclasları peşəkar təhlil və demokratik ab-hava şəraitində keçirdi. Ramiz müəllim elə bil ki, özü də bu kollektivçi-

lik ruhuna sazlanmışdı, onun fikrinə etiraz edənlərə diqqətlə qulaq asır, giley-güzarların böyüməsinə isə imkan vermirdi. Rəsmi iclasla qeyri-rəsmi görüş və söhbətləri bir-birindən aralı və fərqli tutmağı bacarırdı. Lakin Ramiz müəllimlə yola getməyən, müxtəlif tələblərlə, o cümlədən idarəetməni kökündən dəyişmək fikri ilə çıxış edənlər, qərarqəbuletmədə xüsusi rol oynamaq istəyənlər də vardı və onlar getgedə daha kəskin addım atmaq və ya daha kəskin sözlər işlətməkdən çəkinmirdilər. Ramiz müəllim də onlara qarşı kəskin olmaq yolunu seçmişdi. Bir qədər sonra bəzi adamları, xüsusilə də İcraiyyə Komitəsinin bir üzvünü federasiyaya buraxmamaq qərarına gəldi. Mən çox narahat oldum, federasiyada yaranmış açıq və işgüzar mühitin pozulmasını istəmirdim. Ramiz müəllimlə təklikdə görüşüb ondan qərarını dəyişməsini istədim. O, mənimlə dərdləşdi: "Ağzına gələni danışan, məni təhqir edən adamla mən neyləməliyəm? Onun nazınnanmı oynamalıyam? Sakit gəlsin, adam balası kimi sözünü desin, biz də qulaq asaq". Mən bu məsələni İcraiyyə Komitəsində qaldırmağı təklif etdim: "əgər sizi təhqir edibsə, gəlib üzr istəsin". Ramiz müəllim yaxın qoymadı: "İnsanlar bir-birilə insan kimi davranmalıdırlar, bunu bacarmırlarsa, ən düz yol onlarla üz-üzə gəlməməkdir, onları görməməkdir". Mən digər bir neçə halda da onun dönməzliyinin, prinsipiallığının şahidi oldum.

Türkiyə Futbol Federasiyasının prezidenti Haluk Ulusoyu Xəzər Universitəsinə dəvət etmişdim. O, böyük nümayəndə heyəti ilə gəlmişdi, Türkiyə futbolunun inkişafı haqqında maraqlı bir məruzə oxudu. Ona, təbii ki, AFFA-ya getməyi təklif etdim, nədənsə getmək istəmirdi. Ya əvvəllər bizim federasiya ilə onun arasında nəsə olmuş, ya da kimlərsə ona nəsə demişdilər. Mən israr etdim, Azərbaycana gəlib AFFA-ya getməməyin doğru olmadığını söylədim, "buna xalq nə deyər?" Çox şadam ki, federasiyamızda da görüş oldu, onu Ramiz Mirzəyevlə yaxınlaşdırdım, bu yaxınlığın sonralar mənsiz də davam etdiyindən məmnun oldum. Haluk Ulusoya Xəzər Universitəsinin fəxri doktoru diplomunun təqdim olunması mərasimində də Ramiz Mirzəyev yaxından iştirak etdi. Haluk Ulusoy ikinci dəfə Bakıya gələndə də Xəzər Universitəsində onunla görüş oldu, üçümüz bir yerdə maraqlı vaxt keçirdik.

Ramiz müəllimlə "Türkiyə futboluna, Türkiyə yığmasına xas olan coşqunluq, ruh, canyandırma niyə Azərbaycanda yoxdur?" sualına cavab axtarırdıq. Mənim bu suala cavabım sanki onu da qane edirdi: Birincisi, "Sovet dövründə Azərbaycanda böyük futbol olub, böyük futbol ənənəsi var" fikri bir qədər şişirdilmişdir, biz Moskva, Kiyev və Tbilisi ilə müqayisədə çox geri qalırdıq. Üstəlik, digər futbol mərkəzlərindən də qabaqda deyildik, başqaları Sovet İttifaqı çempionu oldular, biz olmadıq, cəmi bir dəfə üçüncü yeri tuta bildik. Əlbəttə ki, yaxşı futbolçularımız vardı, amma bu, hələ güclü futbol məktəbi adlanmaq üçün kifayət deyil. İkincisi, həyatın bir çox sahəsində olduğu kimi, futbolda da müxtəlif şübhəli kombinasiyalar işlətməklə, gözə kül üfürməklə, istedad və zəhmət əvəzinə pula güc verməklə, şöhrəti satın almağa çalışmaqla iş getməz. Qabaqcıl təcrübələr nəzərə alınmaqla düzgün planlama işinin qurulması vacibdir, bu isə bizdə yox kimi-

dir. Nəhayət, üçüncüsü, patriotizmin, xalqsevərliyin futbolumuzda zəif rol oynaması, maddiyyətin yeganə ölçü olması çəkilən zəhməti də puça çıxarır. Ramiz müəllim "düzgün planlama işindən başlayaq, görək nə olur?" deyirdi.

Əlbəttə ki, futbol yeganə sevimli məşğələmiz deyildi. Hər ikimiz musiqi ilə bağlı idik. Neft-yağ zavodunun peşəkar musiqiçilərlə işləmək təcrübəsi vardı, zavodun ansamblında tanınmış muğam ustaları və çalğıçılar çalışırdılar. Ramiz müəllim onların nazı ilə oynayır, onlara hər cür kömək edirdi (baxmayaraq ki, o, ümumiyyətlə, naz ilə oynamağı sevmirdi). Xəzər Universitəsində də musiqi və incəsənət sahəsində dərslər keçilir, tanınmış sənət adamları çalışırdılar. Arif Babayev muğam dərsi deyirdi (indi də davam edir). Bir gün "Arif müəllim, gəlin bir dəstə yığaq və bir dəstgah hazırlayaq" dedim. Arif müəllim əvvəlcə təəccübləndi: "necə yəni dəstə?". Mən fikrimi izah etdim: "Rast" dəstgahını bir nəfər deyil, beş-altı nəfər xanəndə oxusun, hərə öz səsinə daha uyğun olan yeri oxusa, daha keyfiyyətli alınmazmı? Bəzi yerləri, məsələn təsnifləri və ya onların bir parçasını, xor kimi hamı və ya xanəndələrin bir qismi birlikdə oxusun. Belədə muğam konserti həm də maraqlı və rəngarəng alınar, dinləyənlər də yorulmaz...". Arif müəllim ideyanı bəyəndi, gözəl



səsli gənc xanəndələri topladı, məşqlər başlandı. Və nəhayət, Xəzər Universitəsi "Dünya" konsert salonunda Rast dəstgahı musiqisevərlərə təqdim edildi. Muğam və ümumiyyətlə, musiqi ictimaiyyəti, görkəmli insanlar konsertə gəlmişdilər. Çox böyük rəğbət görən bu tamaşada Ramiz Mirzəyev də vardı, mənimlə yanaşı əyləşmişdi, hamı kimi o da böyük zövq aldı. Tamaşa qurtaranda "sən əla iş görübsən, yenilik etdin, bizi qabaqladın. Gərək biz də buna bənzər bir iş görək" dedi. Sonra Arif müəllimi və digər müğənniləri bir-bir təbrik etdi: "çox gözəldir, gəlin görək biz nə edək?" Mənim: "Ramiz müəllim, Allah verib muğamlarımız çoxdur, bəlkə "Şur"u hazırlayasınız?" fikrim deyəsən onun da, Arif müəllimin də xoşuna gəldi. Bir qədər keçdi. Neft-yağ zavodunun mədəniyyət sarayında Arif Babayevin başçılığı ilə Şur dəstgahı ifa olundu. Bu dəfə də tamaşada xeyli tanınmış insanlar vardı. Ramiz müəllim tamaşa başlanmazdan əvvəl məni mərkəzi bir yerdə oturtdu, "gedim qonaqları qarşılayım" – deyə, üzrxahlıqla məndən aralandı, konsert başlananda isə gəlib mənim yanımda oturdu. Biz yenə də muğam möcüzəsinin xoşbəxt əsiri olduq.

Mənim poeziya gecəm idi. Ramiz müəllim çox diqqətlə qulaq asırdı. Sabahı gün axşam mənə zəng etdi. Telefonda səsi çox həyəcanlı idi, "ay qardaş, mən səni yaxşı tanıdığımı zənn edirdim, amma sən demə tanımamışam, nə qədər həssas insansanmış, bütün gecə yatmayıb sənin şeirlərini oxumuşam". O çox tərif etdi (oxucudan üzr istəyirəm, bu sözləri Ra-

miz Mirzəyevin xatirəsini yad edərkən, onun simasını göz önündə canlandırarkən yada salıram, onun dediyi sözləri, daha doğrusu, o sözlərin bir qismini deyirəm). Ramiz müəllim çox mütəəssir görünürdü, çox şairanə danışırdı o gecə. Bir dəfə də mənim "Xəzərin sorağında" kitabımı oxuyarkən təsirlənmiş, mənə zəng etmişdi. Xəzər Universitəsinin yaranmasına hazırlıq işləri və ilk kövrək addımları Sovetlərin son ilinə təsadüf etmişdi. Bu dövrdə, eləcə də müstəqilliyimizin ilk aylarında başıma gələnləri, Xəzər Universitəsinin yaradılması yolundakı təşkilati işləri, siyasi hadisələri, iqtisadi çətinlikləri, psixoloji məqamları təsvir edən bu əsəri də Ramiz müəllim, özü dediyi kimi, birnəfəsə oxumuşdu. O, kitabdan müxtəlif səhnələri ləzzətlə mənə danışır, kitabı sanki əzbərləmişdi. "O kitabdan mənə yenə göndər" dedi,"hamıya, tanışlarıma danışıram, onlar da oxumaq istəyirlər". Mən on kitab göndərdim.

2005-ci ildə o, bəzən gözümə kefsiz kimi görünürdü. Səbəbini soruşdum. "Yanıma kim gəlirdisə – musiqiçi, alim, aktyor, ziyalılar – hamıya kömək edirdim, indi imkan vermirlər. Mən həmin adamlara necə izah edim ki, daha sizə kömək edə bilmirəm?! Gedəcəm zavoddan". Zavoddan energetika nazirliyinə getdi, amma daha çox futbol federasiyasında olurdu. Son vaxtlar tez əsəbiləşirdi. Mənim də, onun da iş və səfərlərimiz çox olduğu üçün az-az görüşürdük. Dekabrın 5-də televizyada AFFA-nın baş katibi İcraiyyə Komitəsinin yeniləşməsi zəruriyyəti, bəzi üzvlərin qalıb-qalmaması barədə məsələ qaldırılacağına işarə vermişdi. Mən dərhal (dekabrın 6-da) AFFA-nın Icraiyyə Komitəsində fəaliyyətimi dayandırmaq istəyim barədə məktub yazıb AFFA-nın prezidentinə, Ramiz müəllimə göndərdim. O, mənə zəng etdi: "Xahiş edirəm ya siz gəlin, ya da mən gəlim görüşək, necə istəyirsinizsə". AFFA-da görüşdük, əsəbi idi. "Sən bilmirsən mən nə çəkirəm, burda nələr olur, kimlərlə işləməyə məcburam" dedi, "onlara fikir vermə". Onun təkidi ilə İcraiyyə Komitəsi üzvlüyündə qalsam da, mən bu dövrdə fəal deyildim, elə İcraiyyə Komitəsi özü də çox zəif işləyirdi.

Bir gün bir toyda görüşdük, həmişəki kimi hərarətlə. Pərt görünürdü, toyda olmasına baxmayaraq kefi yoxdu. Sonra bildim ki, hər şeyin üzərinə amansız xəstəlik də gəlibmiş. Mənə "sonra sənə deyərəm, niyə belə oldu, mütləq görüşək" dedi. Düzü, mən onun nə demək istədiyini anlamadım. Bir qədər sonra bildim ki, AFFA-nın konfransında nəsə dava kimi bir şey olub, bəzi İcraiyyə Komitəsi üzvlərinin üzvlüyünün bitməsi məsələsi müzakirə olunub, o cümlədən də mənim. Bəlkə də Ramiz müəllim bunu demək istəyirmiş mənə. Amma bu üzvlük məsələsi mənim qəti vecimə deyildi, heç yadıma da düşmürdü. O mənə "sonra sənə deyərəm" desə də, təəssüf ki, sonra biz görüşə bilmədik və o mənə heç nə deyə bilmədi. Mənim də ona deyiləsi çox sözlərim qaldı. Xoş sözlər deyərdim, şeirdən, musiqidən danışardıq, bəlkə futboldan da söhbət açardıq.

Ramiz Mirzəyev istiqanlı, ürəyi yumşaq, eyni zamanda güclü insan idi. Onun gücü girişdiyi işə tam məsuliyyətlə yanaşmasında, sözü üzə deməsində, heç kimdən, heç nədən çəkinməməsində, haqq-ədalət duyğusunda, insanlığında təzahür edirdi.

TƏLƏBƏ SORĞUSU


- *Mən onu Cəfər Cabbarlının qəhrəmanı Edilya xanıma oxşadıram. Özü də nazlı-qəmzəli xanımdır.*
- *Nə edirsə gülə-gülə edir. Oğlanlara qarşı allergiyası var.*
- *Bir az zülümkar olsa da, ümumiyyətlə, yaxşı müəllimdir.*
- *Uşaqları kəsmək onun hobbisidir.*
- *Uşaqlar dərsi öyrənmir və müəllimə buna mane olmaq üçün heç nə etmir.*
- *Çox yaxşı müəllimədir. Üzümə gülə-gülə 4 semestrdir məni kəsir.*
- *Bilikli müəllimədir, izahatı aydındır, amma hər şeyə görə "+" qoyur.*
- *Bir dediyi ilə o biri tutmur.*
- *Öyrədici mühit yarada bilmir. Dərsi maraqlı olmur. Çox cansıxıcı olur. Adam tez-tez saata baxır. Heç bir yeni şey öyrənmədik.*
- *Həmişə aksentimizə səhv tutur, amma öz aksenti yaxşı deyil.*
- *Guya bizə esse yazmağı öyrədəcəkdi, yazı yazmaq üzrə usta olacaqdıq. Esse nə olduğunu başa salmaya-salmaya esse tələb edir.*
- *Elə bilir ki, mürəkkəb sözlərdən istifadə etsə hamı düşünəcək ki, o savadlıdır.*
- *Özü-özünün danışdığını başa düşmür, o ki qaldı biz başa düşək.*
- *Özünə çox arxayındır, yəqin bu hal onun vəzifəsindən irəli gəlir.*
- *Həddindən artıq səbrli müəllimdir, bu qədər də olmaz!*
- *İxtisasını çox mükəmməl bilir, amma ixtisasını, yəni o məhz tərcüməçidir, müəllim kimi praktikası sıfırdır.*
- *Ayrıca tarix otağı olsa, yaxşı olar. Keçdiyimiz otaqda tarixə aid heç nə yoxdur.*
- *Uşaqlar danışarkən vərəqdən oxumasın. Bu ədalətsizlikdir.*
- *Bu müəllim niyə türkcə danışır? Bilirik, Türkiyədə təhsil alıb, amma dərsi öyrənməyənə "ay səni geri kafalı" deməsinə ehtiyac yoxdur.*
- *Müəllimimiz Elnur*
- *Saçır Xəzərə nur.*
- *Savadlı qadındır, amma elə cümlələrdən istifadə edir ki, heç nə başa düşmürəm.*
- *Çox ədalətlidir. Heç vaxt səsini qaldırmır, heç vaxt tələbəni təhqir etmir. Mədəni insandır.*
- *Tələbələrin tələbi,*
- *Elza müəllimə ilə irəli!!!*
- *Pisi görməsən, yaxşının qədrini bilməzsən. Çalışaq ki, onun qədrini bilək.*
- *Bu semestr uşaqlara hörməti azalıb. Dərs vaxtı çölə çıxmağa qoymur.*
- *Nəsə ona qarşı içimdə çox mehribanlıq hissləri var.*
- *Kompüterlərin yaddaşının az olması böyük problem yaradır.*
- *Hər şey yaxşıdır, amma vaxt az verilir, öyrənməli olduğumuzu tam öyrənə bilmirik.*
- *Qrupumuzdakı Politologiya uşaqları dərsə mane olurlar, bütün günü danışırlar.*
- *Dərsdə gəlib lağ-lağı edən uşaqların xaric edilməsini istərdim.*
- *Bir az çox ciddidir. Arada heç olmasa təbəssüm də lazımdır.*
- *Özümüzü hərbi dərsdə hiss edirik.*
- *Müəllim özündən bu qədər razı olmaz. Biz az uşaqlarla mehriban olmaq lazımdır, biz əsgər deyilik axı.*
- *Dərsdə ciddilikdən başqa heç nə yadda qalmır.*
- *Bu müəllimin dərsində qorxudan əsirik. Nə olar, bir az gülün. Sizə gülmək yaraşır.*
- *Əla müəllimdir, amma güzəşt eləmir.*
- *My lovely teacher. You know how she sweet, how she kind?*

TƏHSİL

"XXI əsrdə təhsil yaradıcı şəxsiyyətlərin gözündə"

Sentyabrın 2-də "Hyatt Recency" otelində "XXI əsrdə təhsil yaradıcı şəxsiyyətlərin gözündə" mövzusunda "Dəyirmi masa" keçirilib. Tədbirdə təhsil naziri Misir Mərdanov çıxış edərək bildirib ki, "Dəyirmi masa"nın keçirilməsində əsas məqsəd yeni dərs ili ərəfəsində son illərdə təhsil sahəsində əldə edilmiş uğurları qeyd etmək, mövcud problemləri və onların həlli yollarını müzakirə edib müəyyənləşdirməkdir. Nazir yüksək intellektə malik insan kapitalının formalaşması və davamlı inkişafa zəmin yaradan güclü iqtisadiyyatın qurulmasında təhsilin rolunun əvəzsiz olduğunu bildirib.

Misir Mərdanov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təhsilimizə, bu sahədə çalışanlara göstərdiyi diqqət və qayğısından danışıb. Nazir bildirib ki, büdcədən təhsilə ayrılan vəsait 2008-ci ildə 1,1 milyard manat olub, investisiya xərcləri isə 220 milyon manata çatıb. Təhsillə bağlı 14 inkişafyönümlü Dövlət Proqramının təsdiq edildiyini diqqətə çatdıran nazir 2007-2008-ci tədris ilində ilk dəfə olaraq dövlət səviyyəsində "Ən yaxşı müəllim" və "Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqələrinin keçirildiyini söyləyib. Bu il ali məktəblərə qəbul imtahanlarında məzunların nəticələrinin ötən ilə nisbətən xeyli yüksəldiyini qeyd edən nazir 600-dən çox bal toplayanların sayının 2004-cü illə müqayisədə 2 dəfədən çox artdığını, 6 nəfərin isə 700 bal topladığını, son illərdə dünya fənn olimpiadalarında və beynəlxalq bilik yarışlarında Azərbaycan məktəblilərinin 13 qızıl, 18 gümüş, 50 bürünc medal qazandığını bildirib.



Təhsilimizin beynəlxalq əlaqələrindən bəhs edən Misir Mərdanov diqqətə çatdırıb ki, bu gün Azərbaycan dünyanın 50-dən çox ölkəsi ilə əməkdaşlıq edir, 3 mindən çox azərbaycanlı gənc ayrı-ayrı ölkələrin ali təhsil müəssisələrində təhsil alır.

Misir Mərdanov bu il məktəblərə 102 adda 4 milyon nüsxədən çox dərslik və müəllimlər üçün dərs vəsaiti verildiyini, pedaqoji kadr təminatı üzrə Dövlət Proqramına müvafiq olaraq ciddi ehtiyacı olan ucqar kənd məktəblərinə göndərilən müəllimlərin sayının 4788 nəfərə çatdığını bildirib.

"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"na uyğun olaraq 100 nəfərdən çox azərbaycanlı gəncin ABŞ, Almaniya, Fransa, Böyük Britaniya, Türki-

yə və digər ölkələrin aparıcı universitetlərində təhsil almağa göndərildiyini qeyd edən nazir ölkəmizdə ali və orta ixtisas, texniki peşə təhsilinin inkişafı, informasiya-kommunikasiya texnologiyalarının təhsil sahəsinə tətbiqi üzrə həyata keçirilən proqramların əhəmiyyətini vurğulayıb.

Tədbirdə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fatma Abdullazadə, Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anar, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərimov, Bəstəkarlar İttifaqının sədri Firəngiz Əlizadə, tanınmış elm və mədəniyyət xadimləri, ali məktəb rektorları, təhsil işçiləri, ictimaiyyətin nümayəndələri iştirak edib, mövzu ilə bağlı fikir və mülahizələrini açıqlayıb, yeni dərs ilində təhsil işçilərinə nailiyyətlər arzulayıblar.

LAYİHƏ HÖKUMƏTƏ TƏQDİM OLUNMUŞDUR

Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən, "2008-2012-ci illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı" layihəsi, habelə ali təhsilin bakalavr pilləsində ixtisasların yeni siyahısı hazırlanaraq, hökumətə təqdim edilmişdir.

RESPUBLİKA ÜZRƏ 3500-DƏN ÇOX MƏKTƏB KOMPÜTERLƏŞDİRİLMİŞDİR

"Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı (2005-2007-ci illər)" üzrə 3500-dən çox məktəb kompüterləşdirilmişdir.

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyindən bildirmişlər ki, hazırda ölkə üzrə 29 şagirdə 1 kompyüer, dövlət ali məktəblərində isə hər 28 tələbəyə 1 kompyuter düşür.

Respublikanın ümumtəhsil məktəblərinin 82 faizi, texniki peşə məktəblərinin 42 faizi, dövlət orta ixtisas təhsili məktəblərinin 91 faizi, ali məktəblərin isə hamısı kompüter avadanlığı ilə təmin olunmuşdur

AZƏRBAYCANIN ALİ MƏKTƏBLƏRİNDƏ ALTI MİNDƏN ÇOX ƏCNƏBİ TƏLƏBƏ TƏHSİL ALIR

Təhsil naziri Misir Mərdanov AzərTAc-ın müxbirinə bildirmişdir ki, hazırda Azərbaycanın ali məktəblərində 6 mindən çox əcnəbi tələbə təhsil alır. Onların əksəriyyəti təhsillərini ödənişli əsaslarla davam etdirirlər.

Nazir ölkəmizin təhsil müəssisələrində oxumağa gələn əcnəbi tələbələrin sayının ilbəil artdığını da söyləmişdir.

KHAZAR UNIVERSITY
Courses for Fall Semester, 2008
Department of English

Code	*Subjects*	*Instructor*	*Credits*	*School*
ENGL 101	Reading 1	Firangiz Nassirova, Parvin Mustafayeva, Tarana Boyukzade, Sabina Kerimova, Gulnar Aghayeva, Kamala Seyfiyeva	3	Hum & Social Sc. Education Engineering
ENGL 102	Writing 1	Shafag Babayeva, Arzu Guliyeva, Milana Abasova, Gunel Mammadova, Konul Nassirova, Parvin Mursalova	3	Hum & Social Sc. Education Engineering
ENGL 103	Reading 2	Sevda Ismayilova, Parvin Mustafayeva, Aysel Aslanova, Gulnar Aghayeva, Konul Guluzade	3	Hum & Social Sc. Education Engineering
ENGL 104	Writing 2	Sevda Ismayilova, Shafag Babayeva, Milana Abasova, Konul Guluzade, Parvin Mursalova, Narmina Kazimova	3	Hum & Social Sc. Education Engineering
ENGL 204	ESL pre-advanced	Lydia Gamidaova, Gulhayat Abdullayeva, Aysel Aslanova	3	Hum & Social Sc.
ENGL 201	Grammar pre-advanced	Ravana Taghiyeva, Nushaba Mammadova, Narmina Kazimova	3	Hum & Social Sc.
ENGL 202	Grammar-advanced	Gunel Mammadova	3	Hum & Social Sc.
ENGL 204	ESP	Nushaba Mamamdova	3	Hum & Social Sc.
ENGL 204	ESP	Ravana Taghiyeva	3	Engineering

School of Architecture, Engineering and Applied Science

Code	*Subjects*	*Instructor*	*Credits*	*Language*	*Note*
		Undergraduate Study			
AZLL 101	Azerbaijan Language	Faculty	3	Az	UR
AZC 202	Azerbaijan Culture	Faculty	3	Az/Rus	UR
ENGL 214	ESP	Ravana Tagiyeva	3	Engl	UR
CMS 101	Introduction to Computer Science	Etibar Rzazada	3	Az/Rus	GER
CMS 272	Computer Application in Business	Etibar Rzazada	3	Engl	Major
ECON 201	Principles of Microeconomics	Rafig Gurbanov	3	Engl	Major
PHSC 111	Physics 1	Hikmat Hasanov	3	Engl	Major
MATH 101	Calculus 1	Nigar Aslanova	3	Engl	GER
MATH 340	Applied Statistical Analysis	Nigar Aslanova	3	Engl	Major
CMS 308	Computer Architecture	Ramiz Ahmadov	3	Engl	Major

CMS 204	C-Programming	Aygun Alasgarova	4	Engl	Major
EENG 302	Signals and Systems	Rafig Ahmadov	3	Engl	Major
CHEM 111	Chemistry 1	Ziyafaddin Asadov	3	Engl	Major
ENGR 203	Strength of Materials	Faculty	3	Engl	Major
ENGR 303	Thermodynamics	Hikmat Hasanov	3	Engl	Major
GEOL 103	Geology	Gasham Zeynalov	3	Engl	Major
PETE 410	Well Logging	Elchin Shirinov	3	Engl	Major
PETE 313	Petroleum Reservoir Engineering	Rafig Gurbanov	3	Engl	Major
HIST 110	History of World Civilization	Roza Arazova	3	Az/Rus	GER
REL 201	History of Religions	Ulker Abuzarova	3	Az/Rus	GER
LAW 106	Constitutional Law	Leyla Mammadova	3	Az/Rus	GER
	Life Science	Faculty	3	Az/Engl	GER
	Graduate Study				
CMS 425	Soft Computing	Leyla Muradkhanli	3	Engl	Major
CMS 522	Network Programming	Sakhavat Talibov	3	Engl	Major
CMS 535	Multimedia Systems	Sakhavat Talibov	3	Engl	Major
PETE 501	Enhanced Oil Recovery	Arif Mammadzada	3	Engl	Major
PETE 540	Advanced Well Log Analysis	Elchin Shirinov	3	Engl	Major
PETE 512	Advanced Petroleum Reservoir Engineering	Rafig Gurbanov	4	Engl	Major
PETE 409	Petroleum Geoscience	Gasham Zeynalov	3	Engl	Major
ECON 410	Intermediate Microeconomics	Rafig Gurbanov	3	Engl	Major

School of Economics and Managment

Code	*Subjects*	*Instructors*	*Credits*	*Language*	*Note*
	FIRST YEAR				
ENGL 101	Writing 1	Afet A., Kamala ., Saadat F.	6	Engl.	UR
ENGL 102	Reading 1	Afet A., Kamala ., Saadat F.	6	Engl.	UR
BSA 101	Introduction to Business	Fuat Rasulov	3	Az. Rus.	Major
CMS 101	Introduction to Comp.Science	Etibar Rzazade, Fuad Efendiyev	3	Az. Rus.	GER
AZLL 101	Azerbaijan Language	Durdane Rahimzade	3	Az.	UR
ACC 210	Financial Accounting	Elmar Rahimov	3	Engl.	Major

LAW 305	Business Law	Altay Mustafayev	3	Engl.	Major
ECON 201	Microeconomics (2 groups)	Elvin Efendi, Rovshan Guliyev	4	Engl.	Major
ECON 202	Macroeconomics	Rovshan Guliyev	3	Engl.	Major
MATH 225	Mathematics for Economics	Rovshan Guliyev	3	Engl.	Major
MATH 101	Calculus (2 groups)	Khanim Jafarova	3	Engl.	GER
FREN 201	French (1)	Feremez Bagirov	3	French	GER
AZC 201d	Classic Music (Culture)	Yegana Akhundova	3	Az.	UR
BSA 210	Computer Application	Etibar Rzazade	3	Engl.	Major
LAW 220	Family Law (Soc. Sc)	Akif Alizadeh	3	Az.	GER
PHIL 110	Philosophy (Soc. Sc)	Agalar Memmedov	3	Az.	GER
	Din tarixi (Humanity)	Ulker Abuzarova	3	Az.	Major
ENGL 214	ESP	Syed Mohammad Ali	3	Engl.	UR
MKT 301	Marketing	Murad Tahirov	3	Engl.	Major
IT 420	Information Technology	Vagif Selimov	3	Engl.	Major
BSA 250	Business Statistics	Rovshan Guliyev	4	Engl.	Major
FIN 310	Financial Management	Kamran Medjidov	3	Engl.	Major
MGT 330	Management	Khumar Huseynova	3	Engl.	Major
MGT 850	Operations Management	Khumar Huseynova	3	Engl.	Major
	Pricing Strategy	Elman Feyziyev	3	Engl.	Major
ACC 310	Managerial Accounting	Asif Mahmudov	3	Engl.	Major
	Financial Management 2	Mahmud Jafarov	3	Engl.	Major
	Enviromental Management	Rovshan Abbasov	3	Engl.	Major
IB 820	International Business	Anver Huseynov	3	Engl.	Major
	Service Marketing	Aygul Isayeva	3	Engl.	Major

MBA

MKT 840	Marketing Policy	Syed Mohammad Ali	3	Engl.	Major
ECON 830	Managerial Economics	Rovshan Guliyev	3	Engl.	Major
IT 420	Information Technology	Vagif Selimov	3	Engl.	Major
FIN 845	International Finance	Nigar Ismayilova	3	Engl.	Major
MGT 800	Applied Business Statistics	Gursel Aliyev	3	Engl.	Major
MGT 850	Operations Management	Ramin Alakbarov	3	Engl.	Major
ACC 210	Financial Accounting	Arzu Hajiyeva	3	Engl.	Major
	Energy Management	Inglab Ahmadov	3	Engl.	Major

MGT 848	Leadership and Power Politics	Chingiz Mammadov	3	Engl.	Major
MGT 410	Organizational Behavior	Elchin Rashidov	3	Engl.	Major
ACC 430	Internatioanl Accounting	Alakbar Akbarov	3	Engl.	Major
FIN 460	Bank Management	Sohrab Farhadov	3	Engl.	Major
FIN 830	Financial Management	Farid Musayev	3	Engl.	Major

School of Humanities and Social Sciences

Subject	*Instructor*	*Credit*	*Language*	*Major*	*Code*
Survey of British Literature-2	Rena Musayeva	3	English	Major	ENGL 330
Advanced English Vocabulary	Lidiya Hamidova	3	English	Major	
Literary Studies	Rena Musayeva	3	English	Major	ENGL 420
American Studies	Khayala Mammadova	3	English	Major	AMS 208
Academic Writing	Nushaba Mammadova	4	English	Major	ENGL 335
Sociolinguistics(A)	Jala Garibova	4	English	Major	Ling 421
Sociolinguistics(A)	Jala Garibova	4	English	Major	Ling 421
World Literature in English	Khayala Mammadova	3	English	Major	ENGL 417
Stylistics(A)	Irina Orujova	3	English	Major	ENGL 609
Stylistics(B)	Irina Orujova	3	English	Major	ENGL 609
Communicative English(A)	Khayala Mammadova	3	English	Major	ENGL 325
Communicative English(B)	Khayala Mammadova	3	English	Major	ENGL 325
Introduction to Creative Writing-(A)	Khanim Mammdova	4	English	Major	ENGL 419
Introduction to Creative Writing-(B)	Khanim Mammdova	4	English	Major	ENGL 419
Text Interpretation	Ramila Mammadova	3	English	Major	
Translation Practice-3	Fred KAtrimov	3	English	Major	ENGL 411
Translation Theory	Irina Orujova		English	Major	ENGL 608
Introduction to Linguistics	Firdovsi Karimov	3	English	Major	LING 215
Department of Azerbaijani Language and Literature					
Azerbaijan Language-1(A)	Elza Ismayilova	3	Azeri	UR	AZLL 101
Azerbaijan Language-1(B)	Elza Ismayilova	3	Azeri	UR	AZLL 101
Azerbaijan Language-1(C)	Elza Ismayilova	3	Azeri	UR	AZLL 101
Azerbaijan Language-1(D)	Konul Guliyeva	3	Azeri	UR	AZLL 101
Azerbaijan Language-1(E)	Elza Ismayilova	3	Azeri	UR	AZLL 101
Azerbaijan Language-1(G)	Elza Ismayilova	3	Azeri	UR	AZLL 101
Azerbaijan Literature2(A)	Dilbar Zeynalova	3	Azeri	Major	AZLL 205
Azerbaijan Literature2(B)	Dilbar Zeynalova	3	Azeri	Major	AZLL 205
Azerbaijan Literature2(C)	Aydinkhan Abilov	3	Azeri	Major	AZLL 205

Modern Azerbaijan Language-1	Elza Ismayilova	3	Azeri	Major	
Modern Azerbaijan-2	Elza Ismayilova	3	Azeri	Major	AZLL 108
History of Azerbaijan Literature-1(Folklore)	Bahlul Abdulla	3	Azeri	Major	AZLL 107
History of Azerbaijan Literature-2	Knyaz Aslan	3	Azeri	Major	AZLL 207
History of Azerbaijan Literature-5	Dilbar Zeynalova	3	Azeri	Major	AZLL 307
Fundamentals if Linguistics	Reyhan Madatova	3	Azeri	Major	LING 215
Phonology	Reyhan Madatova	3	Azeri	Major	LING 310
Literature of Turkic People	Elza Samadova	3	Azeri	Major	TURK 102
Introduction to Turkology	Elza Samadova	3	Azeri	Major	TURK 101
World Literature-1	Farhad Allahverdiyev	3	Azeri	Major	LIT 305
Azerbaijani Literature-1	Aydinkhan Abilov	3	Azeri	UR	AZLL 105
Department of History and Archaeology					
Azerbaijan History (A)	Roza Arażova	3	English	GER	AZH 150
Azerbaijan History (B)	Roza Arazova	3	English	UR	AZH 150
Azerbaijan History (C)	Roza Arazova	3	English	UR	AZH 150
Azerbaijan History (D)	Roza Arazova	3	English	UR	AZH 150
Department of Music and Fine Arts					
Mugham	Arif Babayev	3	Azeri	UR	AZC 201 a
Carpet Art	Zakir Hasanova	3	Azeri	UR	AZC 201 c
Jewelery Art	Eduard Shamaryayev	3	Azeri	UR	
Chorus	Nuraddin Mardanov	3	Azeri	UR	AZC 201 e
Dance(boys)		3	Azeri	UR	AZC 201 b
Dance(girls)	Sabina Minasazova	3	Azeri	UR	AZC 201 b
Department of Eastern Languages and Religious Studies					
Persian-1(A)	Zivar Husenova	3	Persian	Major	PERS 206
Persian-1(B)	Zivar Huiseynova	3	Persian	Major	PERS 206
Arabic-1(A)	Ulkar Abuzarova	3	Arabic	Major	ARAB 206
Arabic-1(B)	Ulkar Abuzarova	3	Arabic	Major	ARAB 206
Arabic-3(A)	Kamala Hasanova	3	Arabic	Major	ARAB 307
Arabic-3(B)	Kamala Hasanova	3	Arabic	Major	ARAB 307
Persian-3(A)	Natig Zulfugarov	3	Persian	Major	PERS 306
Persian-3(B)	Zivar Husenova	3	Persian	Major	PERS 306
Arabic-5(A)	Tarana Akbarova	3	Arabic	Major	ARAB 406
Arabic-5(B)	Tarana Akbarova	3	Arabic	Major	ARAB 406
Persian-5(A)	Natig Zulfugarov	3	Persian	Major	PERS 406
Persian-5(B)	Natig Zulfugarov	3	Persian	Major	PERS 406
Communicative Arabic	Elnur Lahijov	3	Arabic	Major	ARAB 408
Communicative Persian	To be appointed	3	Persian	Major	PERS 408
Islamic Thought	Elnura Azizova	3	Azeri	GER	
Sufism	Mehmet Rihtim	3	Azeri	GER	
History of Islam	Elnura Azizova	3	Azeri	GER	
Philosophy of Religion	Ulkar Abuzarova	3	Azeri	Major	PHIL 417
Japanese-1	Jamila Bakikhanova	3	Japanese	GER	
Hebrew	Emiliya Ramazanova	3	Hebrew	GER	
Arabic-2	Elnur Lahijov	3	Arabic	Major	ARAB 207

Department of Philosophy and Human Studies					
Psychopathology	Ulkar Isayeva	3	English	GER	
Basics of Educational Psychology	Eldar Shahgaldiyev	3	English	Major	PSYC 304
Family and Marriage	Murad Tagiyev	3	English	GER	SOC 360
General Psychology	Kamala Aliyeva	3	Azeri	GER	
Logics	Elmar Huseynov	3	Azeri	GER	
Contemporary Philosophy	Mail Yagubov	3	Azeri	GER	PHIL 213

Department of Journalism					
News Writing	Vusal Mammadov	3	Azeri	Major	JOUR 203
History of Journalism	Knyaz Aslan	3	Azeri	Major	JOUR 102
Genres of Journalism	Knyaz Aslan	3	Azeri	Major	JOUR 310
Fundamentals of TV and Radio	Asmar Yusifzada	3	Azeri	Major	JOUR 401
Photo Journalism	Farid Gadirov	3	English	Major	JOUR 204
Radio Journalism	Shahla Sultanova	3	English	Major	
Department of Modern Languages and Comparative Literature					
Italian-2	Kamala Mammadova	3	Italian	GER	
Italian-1	To be appointed	3	Italian	GER	
Department of Computer Science and Engineering					
Introduction to CS(A)	Konul Ahmadova	3	Azeri	GER	CMS 101
Introduction to CS(B)	Konul Ahmadova	3	Azeri	GER	CMS 101
Introduction to CS(C)	Nuru Safarov	3	Azeri	GER	CMS 101
Introduction to CS(D)	Nuru Safarov	3	Azeri	GER	CMS 101
Earth and Space Science	Hikmat Hasanov	3	Azeri	GER	SCI 101
Department of International Relations and Political Science					
İntroduction to Political Science	Kenan Allahverdiyev	3	Azeri	Major	PLTS 110
History of Political Theories	Kenan Allahverdiyev	4	Azeri	Major	PLTS 120
İntroduction to Economics	Senan Mirzayev	3	English	Major	ECON 101
NATO and Security Studies	Mukhtar Mammadov	3	English	Major	INTR 370
Foundation of Security Studies	Rashad Huseynov	4	English	Major	INTR 460
French-1	Faramaz Baghirov	3	French	Major	FREN 201
Political and Economic Geography of World Countries	Elnur Nasirov	3	Azeri	Major	INTR 410
Middle East in World politics	Elnur Nasirov	3	Azeri	Major	INTR 507
Modern Diplomacy	Baba Bayramli	4	English	Major	INTR 310
Theory of International Relations	Ilgar Ibrahimli	4	English	Major	INTR 215
Research Methods in Political Science	Senan Mirzayev	4	English	Major	PLTS 460
Foreign Policy of Turkey	Elnur Nasirov	3	Azeri	Major	INTR 525
Philosophy	Aghalar Mammadov	4	Azeri	Major	PHIL 110
French-2	Faranmz Bagirov	3	French	Major	FREN 202
Conversation and Composition	Vusala Yusubova	3	French	Major	FREN 303

School of Law

Undergraduate

Fourth year (Law) & Graduate

Code	Subject	Credits	Instructor	Note	Language
LAW 504	Crimes against Personality	3	Jabir Guliyev	Elective	Az./Rus
LAW 408	Labor Law	4	Sariyya Hajiyeva	Major	Az./Rus
LAW 168	Administrative Law	3	Leyla Mammmadova	Elective	Az./Rus
LAW 104	Theory of State and Law	3	Leyla Mammmadova	Major	Az./Rus
ISL 210	History of Islam (or any other)	3	Elnura Azizova	GER	Az./Rus
ISL 314	General and personal hygiene	3			Az./Rus

Fourth year (International Law) & Graduate students

Code	Subject	Credits	Instructor	Note	Language
INTLAW 658	**Air Law**	**3**	**Fuad Guliyev**	**Major**	**English**
INTLAW 548	Entrepreneurship Law	4	Alakbar Mammadov	Elective	English
INTLAW 572	Banking Law *	3	Altay Mustafayev	Elective	Az./Rus
INTLAW 374	International Humanitarian Law	3	Saadat Novruzova	Elective	English

School of Medicine, Stomatology and Public Health

Subject	Credits	Teachers	Note	Language
Azerb.Lang.2	4	Guliyeva Konul	GER	
Az. History	3	Department	GER	Engl.
Cl. Biochemistry 2	3	Gulnara Azizova	Major	Engl
Pat.Phys.1,2	3	Elchin Zeynalov	Major	Engl
Immunology	3	Elchin Zeynalov Khuraman Aliyeva	Major	English Azerb
Intr.to Intern.Des	3 3	Rena Kerimova Natavan Faradjeva	Major	Azerb. Engl
Intr.to Surgery	3	Rauf Shachbazov	Major	Engl
Surgery 1, Surgery 5	4	Nadir Zeynalov		English
Histology 2	3	Samira Kalantarli	Major	Engl
Ortopedics and Traumotology	3	Nadirov Namik	Major	English
Medical Genetics 2	3	Kadirova Tarana	Major	Engl
Introduction to Nursing	3	Rajamohan	Major	Engl
Medical chemistry	3	Gulnara Azizova	Major	
Cl.Biochemistry 1,2	3,2	Gulnara Azizova	Major	Az.
Pat.phys.1,2	3	Khuraman Aliyeva	Major	Az.
Topographical anatomy	3	Elchin Akperov	Major	Az.
Anatomy 2,3	4,4	Elchin Akperov	Major	Engl.


Dermatology	3	Ilxam Axmedov, Gulnara Mamedova	Major	Azerb. Engl.
Internal Des.1,5	5	Rena Kerimova	Major	Engl.
Epidemiology and biostat.	3	Madar Talibov	Major	Engl.
Functional diagnostics	3	Rena Kerimova	Major	Engl
Gynecology	3	Smirnova Elena Namazov Mexman	Major	English
Chaild Deseases	3	Ceremukhina Svetlana	Major	Engl
Psychiatrics	3	Nazim Hasan-zade	Major	Engl
Stom Therapy 3	3	Rauf Azizov	Major	Rus
Stom Therapy 5	3	Najaf Allahverdiyev	Major	Rus. Azerb
Ortopedics		Rauf Azizov	Major	Rus
Ortodontics	3	Nigar Hunavery	Major	Azerb
Stom surgery	3	To be arrange	Major	Azerb.,
Oral .Patology	3	Anar Abdullayev	Major	English
Stom Oncology		Anar Abdullayev	Major	
Radio diagnosis and Radiotherapy	3	Kamal Akperov	Major	English Azerb.
Emergency medicine	3	Rajamohan	Major	English
Elective Course	3	Agil Aliyev	Major	Azerb., Rus
Med.Expertise	3	Tahir Hojali	Major	Rus Azerb

School of Education

Code	*Courses*	*Credits*	*Language*	*Instructor*	*Note*
ENG 101	Writing-I, Writing-II	3\3	English	Parvin Mursalova MA	UR
ENG 102	Reading-I, Reading-II	3 3	English	Kamala Seyfiyeva MA Sevda Ismayilova MA	UR
SCI 101	The Earth and Space Science	3	Azeri	Ismat Ahmadov	Major
AzLL 102	Introduction to Writing	3	Azeri	Gultekin Binnetova	Major
CMS 101	Introduction Computer Science	3	Azeri	Fuzuli Mammadov	Ger
MATH 223	Mathematics for Elementary Teachers-I	3	Azeri	Asif Nebiyev	Major
PSYC 101	Introduction to Psychology. Child Development	4	Azeri	Elmira Mirzayeva	Major
ART 201	Painting	2	Azeri	Farida Mirzayeva	Major
GEOG 201	World Regional Geography	2	Azeri	Shamil Huseynov	Major/Elec
EDU 350	Elementary Health and Physical Education	3	Azeri	Gulchin Mehraliyeva	Major/Elec
EDU 206	Basic of Dephectology	2	Azeri	Gulchin Mehraliyeva	Major/Elec
EDU 208	Drama in the Classroom	1	Azeri		Major/Elec
EDU 325	Elementary Art Education	2	Azeri	Farida	Major/Elec
EDU 105	Introduction to Education	3	Azeri	Isakhan Isakhanli	Major/Elec
EDU 327	Elementary Mathematics Education	2	Azeri	Asif Nebiyev	Major/Elec

Tarixdən bu günə

"Gəmiləri yandırın"



Mən çox məşhur olan bu dəyərli kəlamın mənasını sizə açıqlamaqdan öncə tarixinə nəzər salmaq istədim. Məncə, bu hamıya çox maraqlı olar. Əvvəla xatırlatmaq istərdim ki, "gəmiləri yandırın" çox möhtəşəm, sevgi dolu bir kəlamdır; çünki qəhrəman, ölməz, əbədi bir tarixi var. "Gəmiləri yandırmaq" örnək bir fikirdir; buna inanmaq üçün bu barədə yazılmış mənalı, dəyərli şeirlərə, nəğmələrə, incəsənət nümunələrinə nəzər yetirmək kifayətdir.

Əslində məsələni tam başdan başlasam, çox gözəl olar. Belə ki, islam tarixinin qəhrəman sərkərdələrindən biri olan Tariq bin Ziyad Şimali Afrikada məskən salmış bərbər tayfalarından birində dünyaya gəlmişdi. Ərəblər Əməvilər dövründə Şimali Afrikanı fəth etdikdən sonra bərbərlər islam dinini qəbul etmişdilər. "Bərbər" adını da yerli əhaliyə ərəblər vermişdilər; "ərəb olmayan" mənasını verir.

VIII əsrin əvvəllərində Şimali Afrikanın valisi Musa bin Nüseyr idi. 711-ci ildə o, köləsi Ziyadın oğlu Tariqi 12 min nəfərlik ordu ilə İspaniyanı fəth etməyə göndərir. Qarşı sahildəki bir dağa çatan sərkərdə ora Cəbəlüttariq ("Tariqin dağı"), yəni öz adını qoyur. Nəhayət, İspaniyaya çatan cəsur, uzaqgörən sərkərdə əsgərlərinin ölüm-qalım savaşından qaçmaması üçün bütün gəmiləri yandırtdırır. Sağlam xarakterli, möhkəm iradəli Tariq bin Ziyad bu zaman belə demişdi: "Ey mücahidlər! Arxanızda düşmən kimi bir dəniz, önünüzdə dəniz kimi bir düşmən var, hara qaçacaqsız? Dönüş yoxdur, yalnız iki yol var: ya ölmək, ya da zəfər çalmaq".

Tezliklə Karteya və Algeziras əyalətlərini ələ keçirən Tariq bin Ziyad Rio Barbetada Got kralı Rodrigesi ağır məğlubiyyətə uğradır. Nəticədə, qorxmaz sərkərdə qotların paytaxtı Toledonu ələ keçirərək, 350 illik barbar Got hakimiyyətinə son qoydu. Beləliklə, Tariq bin Ziyadın 12 minlik cəngavər ordusu 90 min döyüşçüdən ibarət düşmən ordusunu darmadağın edir və İspaniya müsəlmanların əlinə keçir. Bircə bunu xatırlatmaq kifayət edər ki, gəmiləri yandırmaq fikri Tariq bin Ziyadın nə qədər ağıllı, cəsur, mərd və möhkəm iradəli bir insan olduğundan xəbər verir.

Deməli, ortada müqəddəs bir vəzifə, məqsəd varsa, ölüm buna qorxulu və əngəl ola bilməz. Tariq bin Ziyadın bu şərəfli məqsədi dörd yüz illik möhtəşəm Əndəlis mədəniyyətinin təməlini qoydu. Beləliklə, Avropa mədəniyyətinin bu günkü səviyyəyə çatmasına zəmin yarandı. Əslində, elə mən buradaca tarixdən ayrılmaq istəyirəm.

Məsələ burasındadır ki, zaman insan duyğularını, arzu və istəklərini gözləmir, bəzən böyük bir xoşbəxtlik üçün bizə sadəcə 1- 2 dəqiqə vaxt verilir. Tariq bin Ziyadın nümunəsi öyrədir ki, əgər bir şeyə qərar vermisinizsə, onu ilk öncə düşünün, öyrənin, məsləhətləşin və nəticəyə gəlin. Əgər sizin niyyətiniz, istəyiniz ləyaqət, insanlıq, əxlaq üzərində qurulubsa, uduzsanız belə, əsla sınmayın. Çünki siz cəsursunuz, məqsədinizə doğru qətiyyətlə hərəkət etmisiniz, sadəcə, onu əldə edə bilməmisiniz.

İndi elə zamanda yaşayırıq ki, nəyin düz, nəyin səhv, nəyin doğru, nəyin əyri olduğuna bəzən çətinliklə qərar veririk. Dünənin yalanı bu günə doğru sayılır, əxlaqlılar aciz, əxlaqsızlar üstün görünürlər. Odur ki, bəzi hərəkətləri, ideyaları həyata keçirmədən öncə dərk etmək lazımdır, sonra qəti qərar qəbul etmək olar; inanın, bu zaman gəmiləri yandırmaq çox asan olur...

Günel MUSTAFAYEVA

XX ƏSRİN SONUNDA MİLLİ ÖZÜNÜDƏRK PROSESİ VƏ «AZƏRBAYCAN CƏMİYYƏTİNDƏ TEATRIN YERİ» PROBLEMİNİN AKTUALLAŞMASI

(birinci məqalə)

Ədalət VƏLİYEV,
sənətşünaslıq namizədi

XX əsrin 90-cı illəri özündən əvvəlki onilliklərlə müqayisəyə gəlmir və onlara bənzəmir. Lakin bununla birgə 90-cı illərdə Sovetlər Birliyində və o cümlədən Azərbaycanda yaşanılmış hadisə və problemlərin kökünü 60-cı illərdə arayıb axtarmaq lazımdır. Əlbəttə, bizim burada söylədiyimiz fikir, ilk növbədə, siyasi-sosial proseslərə aiddir. Amma biz heç istəməzdik ki, 90-cı illərdə Azərbaycanda yaşanılmış teatr prosesini taleyüklü, toplumsal hadisələrdən kənarda götürək.

1985-ci ildə keçmiş SSRİ miqyasında başlanan yenidənqurma («perestroyka») faktiki surətdə heç nəyi yenidən qura bilmədi və göstərdi ki, Sovetlər Birliyi kimi nəhəng bir məmləkətdə bu, praktiki olaraq mümkünsüzdür. Tez bir zamanda hər şey alt-üst oldu, yenidənqurma əvəzinə ölkədə xaos, qanunsuzluq əmələ gəldi. Yenidənqurmanın gətirdiyi ən böyük fəlakət isə millətlərarası nifaq, ədavətin qızışdırılması idi. Bu, faktiki olaraq aparılan çox murdar siyasətin təzahürü idi. Rus çarizmi həmişə «parçala və hökm sür» şüarını gerçəkləşdirərək, xalqları uzun əsrlər boyu əsarətdə saxlamışdır. Odur ki, XX əsrin 90-cı illərində rus siyasətinin mənfur xisləti yenidənqurma ilə birgə yenidən üzə çıxdı və aktuallaşdı.

Mülahizələrimizdə bir qədər də dəqiq olsaq, söyləməliyik ki, əslində, keçmiş SSRİ-də vəziyyətin kollapsına doğru aparan yolun başlanğıcı 1988-ci ildən ermənilərin Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış etmələri oldu. Digər tərəfdən, SSRİ-də kommunist rejiminin zəiflədilməsi, yenidənqurmanın ortaya atılması 80-ci illərdə bütün dünya və xüsusilə də Avropa miqyasında böyük eyforiya dalğası yaratmışdı. Hamı inanırdı ki, bu məqam hüdudsuz bir demokratiya səltənətinin aparıcı akkordlarıdır. Bu eyforiyanın digər bir səbəbi də onda idi ki, İkinci Dünya müharibəsindən sonra bir xalqı iki yerə parçalamış Berlin səddinin uçurulmasına uzun müddətdən sonra SSRİ rəhbərliyi icazə vermişdi. Bir tərəfdən Avropanın demokratiya aləmində kommunistlərin əlilə pozitiv proseslər cərəyan edirdi, digər tərəfdən isə sonu görünməyən, həlli bilinməyən Qarabağ, Çeçenistan, Gürcüstan hadisələri başlayırdı. Və ən qorxulusu bu idi ki, həmin iddialar getdikcə ehtirasları qızışdırır və qanlı müharibə ocaqları meydana gətirirdi.

Sovetlər Birliyinin keçmiş respublikaları sırasında Azərbaycan yenidənqurmanın xalqlara vurduğu maddi və mənəvi zərbənin ağırlığına görə birincilər sırasındadır. Öncə azəri turkləri İrəvandan (Ermənistan ərazisindən) və Qarabağ bölgəsinin kənd və rayonlarından çıxarılmağa başladı. Az bir müddət ərzində Azərbaycanda böyük bir qaçqınlar ordusu meydana gəldi və ən paradoksal olanı bundan ibarət idi ki, bu insanlar öz doğma torpaqlarında erməni təcavüzü, erməni işğalı ucbatından didərginlərə dönmüşdülər. Sözügedən fakt Azərbaycanda böyük hiddət dalğası törətdi ki, bu da Sumqayıt hadisələrini ortaya atdı. Ermənilər öz işğalçı ambisiyalarını, niyyətlərini «azadlıq və demokratiya» şüarlarına bürüyüb dünya ictimaiyyəti qarşısında əlavə bonuslar qazanmağa cəhd göstərir və baş vermiş hər hadisədən öz mənafelərinə uyğun bəhrələnmək istəyirdilər. Ona görə də, əsl həqiqətdən xəbərsiz dünya, yeri gəldikcə ermənilərı dəstəkləməkdən çəkinmirdi. Düzdür, hadisələrin gedişatı göstərdi ki, öz ambisiyalarına azadlıq donu ge-

yindirən ermənilər heç zaman azad, müstəqil xalq ola bilmirlər.

1989-cu ilin dekabrında Ermənistandan qovulmuş azərbaycanlılar qış aylarında yurdsuz-yuvasız qaldılar. Bu fakt minlərlə insanı etiraz əlaməti olaraq küçələrə çıxardı. Nəticədə isə Azərbaycan xalqı daha ağır bir zərbə aldı: 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının tankları əli yalın, etiraz mitinqinə çıxmış insanların üstünə yeridi və bir günün içində erməni təcavüzünə, erməni siyasətinə qarşı yönəlmiş etiraz azadlıq mübarizəsinin qırmızı rənginə boyandı. Azərbaycan Respublikası bu hadisədən sonra, azad və müstəqil elan ediləndən sonra hamıya aydın oldu ki, Azərbaycana qarşı işğalçılıq siyasətini köhnə sovet rejimi ermənilərin əliylə gerçəkləşdirir. Belə ki, tezliklə Azərbaycan erməni və rus qoşunlarının təzyiqilə özünün Qarabağ bölgəsindəki rayonlarını bir-bir itirməyə başladı. Yenidənqurma Azərbaycana müstəqillik uğrunda mübarizə ilə yanaşı, həlli onilliklərə qədər uzanan müharibə də gətirdi. Hələ bu azmış kimi, Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkə daxilində qruplaşmalar meydana gəldi ki, onlar da bir-birlərilə hakimiyyət davasına qalxdılar. Erməni qoşunlarının Azərbaycan torpağına hücumları intensivləşdi. Mustəqil respublikada hərc-mərclik, özbaşınalıq artdı. Bu isə Azərbaycanın həm iqtisadi-sosial, həm siyasi, həm də mədəni durumunu son dərəcə pisləşdirirdi.

Həmin bu vəziyyətin siyasi-kulturoloji təhlilinin mahiyyətini teatrşünas M.Əlizadə özünün «Teatr: seyr və sehr» monoqrafiyasında belə açır: «Kommunistlərin nəzərdə tutduqları «radikal dəyişikliklər» SSRİ-də «torpaq altında» mürgüləyən proseslərə təkan verdi və bir azdan bu proses milli azadlıq hərəkatı kimi özünü bəyan edib fəaliyyətə başladı. Mədəni və mənəvi qatda bu hərəkat azadlıq, müstəqillik, millətçilik və milli dövlətçilik ideyalarını oyatdı və tez bir zamanda bu ideyalar sənət təfəkküründün aparıcı amillərinə çevrildi. Mürəkkəb və bu günə qədər açıqlanmayan hadisələr və təsirlər nəticəsində «idarə olunan inqilab» prosesi tez bir zamanda nəzarət altından çıxıb qanlı hadisələrlə səciyyələndi və super ölkənin dağılmasına gətirib çıxartdı. Bu dönəmdə teatr prosesi yenə də ikili xarakter daşımaqda idi: sırf bədii yaradıcı baxımdan buxovlardan, yasaqlardan azad olunmuş teatr düşüncəsi irəliyə sıçrayış üçün hər cür imkanlar qazandı və bir müddət onlardan yetərincə faydalandı. Məzmun qatında bütün riyakar, ikiüzlü sxemlər kənara atıldı, milli mədəniyyət, milli mənəviyyat, o cümlədən dini dəyərlər bərpa olundu, milli azadlıq hərəkatının ideyaları prosesin ideya sistemliliyini təyin etdi. Poetikanın forma və məzmun yaradan amil-konflikti siyasi-inqilabi xarakter aldı, tarixi mövzular başlıca yer tutdu. Digər tərəfdən isə gündən-günə güclənib kəskinləşən, dramatik və faciəvi gərginliyə malik siyasi-ictimai proseslərin enerjisi teatr prosesinin ictimai əhəmiyyətini maksimal dərəcədə azaltdı: müxtəlif qurultaylar, konfranslar, mitinq-nümayişlər, qarşıdurmalar, qanlı toqquşmalar və s. həyati hadisələr bədii təxəyyülün məhsulu olan səhnə hadisələrinin psixoloji təsir gücünü az qala heçə endirmişdi.

Seks, homoseksualizm və hər cür əxlaq pozğunluğu mövzularından faydalanan Rusiya teatr düşüncəsindən fərqli olaraq, milli teatr düşüncəmiz bir müddət sanki mövzu boşluğunda qaldı və siyasi-ictimai proseslərin axarında itdi. Praktiki olaraq, teatr sənətinin paradoksal dönəmi başlanmışdı: mənəvi-ideoloji azadlıq onun fəaliyyətini xeyli çətinləşdirmişdi. Rusiya teatrları bu böhrandan çıxmaq üçün vaxtilə yasaqlanmış dissident ədəbiyyatına əl atdı və bir müddət yenə də siyasi-ictimai əhəmiyyətini bərpa etməyə müyəssər oldu. Azərbaycan mədəniyyətində bu cür faktların, demək olar ki, tam yoxluğundan, teatr prosesi bundan faydalana bilmədi: bir-iki nəzərə çarpan cəhddən sonra proses səngiməyə başladı. Yenidənqurmanın yeni iqtisadi siyasəti teatr prosesinin zahiri səciyyəsinə müsbət təsir göstərdi ki, Azərbaycanda, əsasən Bakıda yeni teatrlar yaranmağa başladı, amma kəmiyyətdən keyfiyyətə keçid o qədər də nəzərə çarpmadı: yeni açılan teatrlar yalnız öz azadlıq və müstəqillik hüquqlarından faydalandı: özəl poetika və yaradıcı metodlarıyla fərqlənən yalnız iki teatr – Milli Akademik Teatrın nəzdində yaradılmış «Yuğ» və müstəqil «Gənclər» teatr studiyaları oldu» (1, 188-190).

Çox dəqiq mülahizələrdir. Lakin yalnız bu mülahizələr 90-cı illərdə Azərbaycanın teatr mədəniyyətində yaşanmış canlılığı bü-

tün rəngarəng spektrlərində görükdürmək iqtidarında deyil. Öncə yenidənqurmanın sosial-iqtisadi kolliziyaları, «Qarabağ» kartının Azərbaycan cəmiyyətinin iflic edilməsi məqsədilə ortaya atılması, cəmiyyətdə gedən ağır, üzücü siyasi mübarizə, vətəndaşların maddi yaşayışının kəskin şəkildə pisləşməsi, yoxsulluğun miqyasının böyüməsi, televiziya faktorunun aktivləşməsi, insanların cəbhə bölgələrindən gələn xəbərləri intizarla gözləməsi, gündəlik həyəcan teatra və eləcə də hər cür əyləncəyə olan marağı söndürmüşdü. Təbii ki, belə bir şərait teatrın vəziyyətinə təsir göstərməyə bilməzdi. Bir çox problemlərlə qarşılaşmış teatr onları heç cür həll etmək iqtidarında deyildi.

Bu problem bir neçə istiqamətdə özünü göstərirdi. Bunların birincisi ondan ibarət idi ki, teatrlar sürətlə müflisləşirdilər: onların maddi-iqtisadi bazası respublikada tüğyan eləyən inflyasiyaya dözə bilmirdi. Bu isə tamaşaların hazırlanmasından ötrü ayrılmış büdcəyə ağır zərbə endirirdi. Teatrlarda fəaliyyət göstərən yaradıcı personal da gün-gündən kasıblaşırdı. Nəticə etibarı ilə çoxları qazanc niyyətilə teatr sənətindən uzaqlaşırdı. İkinci çox mühüm problem isə teatrlarda yaradıcı səviyyənin, yaradıcı həvəsin aşağı düşməsilə müşayiət olunurdu. Üçüncü problem seyrçi məsələsini özündə ehtiva eləyirdi. 80-ci illərin ortalarından etibarən sürətlə öz seyrçilərini itirən teatrlar 90-cı illərdə tamamilə tamaşaçısız qaldılar. Əlbəttə ki, bu problemi yalnız 90-cı illərdəki ictimai-sosial vəziyyətlə əlaqələndirmək ən azı ədalətsizlik olardı. Çünki teatr tariximizin faktı seyrçi probleminin artıq 70-ci illərin əvvəllərində meydana gəldiyini söyləyir. Azərbaycan teatrı öz mövcudluq tarixində (burada əlbəttə ki, Azərbaycanda 135 il bundan öncə təşəkkül tapmış avropatipli teatrın tarixi nəzərdə tutulur) ilk dəfə məhz 70-ci illərdə bu problemlə üzləşir. Bu nə demək idi? Məgər 60-cı illərdən 70-ci illərə adlayarkən teatrla seyrçi arasında xüsusi bir inamsızlıq yaşanılmışdı, yoxsa seyrçi XX əsrin ikinci yarısından «dəlicəsinə» sevdiyi teatrından birdən-birə 70-ci illərdə incimişdi? Bu problem Azərbaycan teatrında 70-ci illərdə zamanın tələbiylə formalaşmışdı. Belə ki, 60-cı illərdə SSRİ vətəndaşlarının xarici ölkələrə səfərlərə çıxmaq imkanları yarandığından onlar daha açıq gözlü olmuşdular. SSRİ-nin şəhər və kəndlərinin mağazalarına, «Beryozka» adlı valyuta dükanlarına import mallar, yeni aparatura axıb gəlməyə başlamışdı. Bu proses isə zövqlərin dəyişməsinə mühüm təsir göstərirdi. 60-cı illərə qədər mədəniyyət aləmində yalnız öz teatrı ilə yaşayan Azərbaycan seyrçiləri, 60-cı illərdə dünya mədəniyyəti hadisələrilə tanış olmaq şansı qazanırlar. Məhz bu zaman televiziyanın imkanları da əməlli-başlı genişlənir və bu tendensiya artan xətt üzrə davam edir. Elə bu xarici amillər artıq 60-cı illərin sonuna doğru teatr seyrçilərinin müəyyən miqdarda azalmasına gətirib çıxarır. Teatr onların zövqünü oxşamaqda çətinlik çəkir. Lakin bu azalma o qədər cüzi olur ki, nəzərə çarpmır, teatr üçün problemə çevrilmir. Axı 60-cı illərdə Azərbaycan teatrı əsl sənət mücahidi, ustad rejissor T.Kazımovun möhtəşəm reformaları ilə yaşamağına baxmayaraq, hələ də şəxsiyyətlər, adlar və titullar teatrı olaraq qalırdı. Odur ki, teatra seyrçilər məhz bu şəxsiyyətlərə və adlara görə gəlirdilər.

70-ci illərdə isə artıq seyrçi auditoriyasının seyrəlməsi özünü əməlli-başlı büruzə verməyə başlayır, teatr əsl problemlə üzüzə dayanır. Ona görə də, teatr tarixi teatrda tamaşaçı probleminin meydana gəlməsi faktını birbaşa 70-ci illərə bağlayır. Hətta bu dövrdə vəziyyət o dərəcədə gərginləşir ki, teatr öz biletlərini məktəblərdə yaymaq məcburiyyətində qalır. Bu da, təbii ki, yaxşı nəticələrə gətirib çıxarmır. Belə ki, biletlər məktəblilərə zor gücünə, onların iradəsi əleyhinə paylanılır. Sonucda isə məktəblilərin «təşrif buyurduğu» tamaşalar aktyorlardan və teatrın administrasiyasından ötrü narahat yuxuya çevrilir.

70-ci illərin ikinci yarısından etibarən teatrda digər problemlər də əmələ gəlir. Bizim fikrimizcə, bu problemlər sıx surətdə bir-birilə əlaqəlidir və biri digərindən törəyir.

70-ci illər teatrının tarixinə bir daha qısa ekskurs onunla izah edilir ki, 80-ci illərin ortalarına yaxın Azərbaycan teatrında seyrçi problemi artıq ən mühüm problem kimi mədəniyyətin gündəminə gəlir, yəni öz apogeyinə çatır. 1985-ci ildən başlanan yenidənqurma və onun ölkəyə səpələdiyi

xaos, hərc-mərcliksə, demək olar ki, Azərbaycan teatrlarını boşaldır, onları seyrçisiz qoyur. Teatrların seyrçilərinin əməlli-başlı seyrəlməsinin bir səbəbi də 80-ci illərin ikinci yarısında və 90-cı illərin əvvəllərində sənət ocaqlarının təmirə dayanması (tam obyektiv şəkildə) oldu. Yox, bu o demək deyildi ki, teatrlar tam boş qaldı. 80-ci illərin ikinci yarısında da tamaşalara baxanlar tapılırdı. Bunlar sənət adamları və təsadüfi seyrçilər idilər. Sənət adamları və təsadüfi seyrçilərsə heç vaxt tamaşaçı qismində qavranılmır. Həqiqətən, 1985-90-cı illər ərzində Azərbaycan teatrının mənzərəsi son dərəcə xaotik idi. Milli Dram Teatrı, Rus Dram Teatrı, Kukla Teatrı, Musiqili Komediya Teatrı təmirə dayanmışdılar. Düzdür, bu təmirlərin miqyası müxtəlif idi. Onlardan elələri vardı ki, binası təzədən sökülüb tikilirdi; elələri də vardı ki, kosmetik təmirə dayanmışdı. Hətta Milli Dram Teatrı qısa bir zaman intervalında iki dəfə təmirlə qarşılaşmışdı, teatrı yenidən, müasir Avropa standartları səviyyəsində qurmaq istəyirdilər. Lakin artıq 90-cı illərin əvvəllərində inflyasiya sürəti gücləndiyindən əsaslı kapital qoyuluşu hesabına təmirə heç cür pul çatdırmaq mümkün olmurdu. Eyni təmir aqibəti Azərbaycan Rus Dram Teatrında da yaşandı. Kukla Teatrının da səhnə, işıq, rekvizit imkanları təmirdən sonra dəyişmədi. Ancaq belə bir təmir Azərbaycan teatr mədəniyyətində izsiz də ötüşmədi. Bu təmirlər nəticəsində teatrlar, demək olar ki, öz daimi seyrçi kütləsinin son hissəsini itirdi. Bununla da Azərbaycan teatr mədəniyyətində teatrlar və bir də teatr xadimləri qaldılar, yəni teatrın təsir hüdudları sırf teatr icması çərçivələrinə qədər daraldı.

Bunun ayrı bir səbəbi də respublika ərazisində gedən elan edilməmiş müharibə idi, bu müharibənin törətdiyi fitnə-fəsadlar idi. Azərbaycan xalqının böyük əksəriyyəti 90-cı illərin əvvəllərini milli təəssübkeşliyi ucbatından, hadisələri ürəkdən yaşaması ucbatından günün çox hissəsini küçə və meydanlarda, siyasi arenada baş verən hadisələrin müzakirəsində keçirirdi. Təbii ki, belə bir vaxtda teatrlara getmək heç onların ağlına da gəlmirdi. Əksinə, teatr, teatrın tanınmış aktyorları küçələrə, meydanlara çıxırdı. Yəni insanların alışdığı ünsiyyət bağları pozulurdu. Teatrlar boş və istisiz qalırdı, aktyorlar isə səhnədə həvəssis və şövqsüz sənət nümayiş etdirirdilər. 90-cı illər, sözün əsl mənasında, böyük bir dönüşün başlanğıcı olmaqla yanaşı, həm də iki mühüm mərhələnin rudimentlərini özündə ehtiva eləyir. Məsələ bundan ibarətdir ki, 90-cı illərdə yenidənqurma faktiki olaraq bitir və müstəqillik dövrü başlayır, praktiki olaraqsa, hər iki mərhələ bir-birinə pərçimlənərək uzun müddət birgə yaşayır. Əlbəttə ki, bu, zamanın, dövrün diqtəsi və tələbi idi.

Ədəbiyyat:

1.Əlizadə M.Ə. Teatr: seyr və sehr; milli teatr prosesi problemləri. – B.: Elm, 1998. – s.189.

2.Bu barədə bax: İsrafilov İ.R. Zaman. Rejissor. Poetika. – Bakı: Mars-Print, 1999. – 273 s.

3.Bax: Talıbzadə A.A. Azərbaycan teatr tarixinin konseptual variantı // Azərbaycan. – 2002. - № 9. – s.164-170.

Xülasə

Bu yazı silsilə kimi düşünülmüş məqalələrdən birincisidir və bu birinci yazıda XX əsrin sonunda milli özünüdərk prosesi və Azərbaycan cəmiyyətində teatrın yeri probleminin aktuallaşmasının sosial-kulturoloji səbəbləri işıqlandırılır.

Эта статья задумана первой из цикла статей и в ней освещается процесс национального самопознания в конце XX века, а также социально- культурологические причины актуальности проблемы театра в азербайджанском обществе.

This article is one of the first ones to be thought as an succession and this first article throws light on the process of national self-knowledge at the end of XX century and on social-cultural reasons of actuality of the role of theatre in Azerbaijan society.

TƏLƏBƏ SORĞUSU

✠ *I am very sorry that she won't teach us next year.*

✠ *Çox çətin xasiyyəti var, onunla dil tapmaq çətindir. Amma dil tapandan sonra hər şey yaxşı olur.*

✠ *Müharibə kinolarına baxırıq. Bu onun üçün maraqlı ola bilər, amma bizə tam əksi.*

✠ *Bu qədər qəddar və qaşqabaqlı olmağın ən böyük ziyanı sizədir. Əgər biz az mehriban olsaydınız, inanın ki, hər şey super olardı.*

✠ *Yaxşı müəllimdir, amma dərsdə səs çox olur. Ağız deyəni qulaq eşitmir. Dərsi ələ ala bilmir, çünki həddindən artıq mülayimdir. Xahiş edirəm ki, dərsdə sərt mühit yaratsın.*

✠ *Həddindən artıq səbrli adamdır, amma dərs keçməyi yaxşı deyil.*

✠ *Actually, it is a bit boring, because she doesn't teach us with practice. I don't like theory, I like practice.*

✠ *Hərdən özünü ciddi göstərməyə çalışır, bu isə müəlliməyə yaraşmır.*

✠ *Özü də bilmir nə danışır.*

✠ *Bəzən danışarkən emosiyalarını cilovlaya bilmir və bəlkə də istəmədən uşaqların şəxsiyyətinə toxunur. Ona görə də, danışığına fikir versə, yaxşı olar.*

✠ *Kaş mən də onun kimi maddələri belə əzbər biləydim. Super...*

✠ *Bütün tələbələrin narazılığına baxmayaraq, müəllim dərsi çox maraqlı və səlis izah edir.*

✠ *Müəllim sinifdə tələbələri özünə cəlb edə bilmir. Bir səbəb ondan ibarətdir ki, səsi çox zəifdir, ucadan danışmır, səsini çox çətinliklə eşitmək olur, amma savadı normaldır.*

✠ *Xətrini çox istədiyim müəllimlərdən biridir. Xəzərin nadir kəşflərindəndir.*

✠ *Müəllimə deyil, MƏLƏKDİR!!!*

✠ *Gözəlsiniz, qəşəngsiniz, bu öz yerində, amma dərs daha da maraqlı olsa, yaxşı olar.*

✠ *Müəllim əladır. Onun xətrinə dəyən bizim də xətrimizə dəyər.*

✠ *Bu fənn üzrə başqa müəllim olsa, daha yaxşı olar, əks halda 2-3 ilə sinifdə kəsilənlərin əlindən yer qalmayacaq.*

✠ *Mənə elə gəlir ki, 4 dəfə kəsilən tələbə artıq bu fənni əla bilir.*

✠ *Bu müəllimə Xəzərin həyatında ən əhəmiyyətli, yaddaqalan olaraq qalacaq.*

✠ *Hər dərs sanki insanın beynini "refresh" edir.*

✠ *Yaman çox danışır. Hərdən dəyişkən olur.*

✠ *Arada adamı şok edən sürprizləri olur.*

✠ *Belə fənn olar?! Oxu ki oxuyasan. Qurtarmır, materiallar çoxdur.*

✠ *Müəllimə, bir az qəddar olun. Uşaqlar sizin saflığınızdan istifadə edirlər.*

✠ *İstərdim ki, dərsi bir az müasir səviyyədə keçsin. Slaydlarla, şəkillərlə keçsin, yoxsa keçmiş vərəqlərdən yazdırmasın. Adamın olan həvəsi ölür. Dərsdə adam güclə oturur. Yazmaqdan barmağımız mazol olub.*

✠ *Bütün günü hörmətdən danışır, ancaq heç dediklərinə əməl etmir.*

✠ *Özü dostları ilə söhbət edir, amma biz danışanda danlayır.*

✠ *Uşaqlar neçə dəfə istəsə, başa salmır. Bu da bizdə ona qarşı soyuqluq yaradır. Bir də soruşmağa utanırıq.*

✠ *Я думаю, что она не должна работать учительницой. Потому что, вечно опаздывает и не хорошо проводит урок.*

✠ *Yenidir, yəni stajı azdır, amma 50 ilin müəllimlərinə dəyər.*

✠ *Hesablamışam, keçdiyimizin 51%-i imtahana düşür. Nə olar ki, dərslər imtahana düşsün.*

✠ *Doğru-düzgün başa sala bilmir ki, əsas nəyi oxumalıyıq. Yəqin ki qəsdən kəsilməyimizi istəyirsiniz.*

✠ *Onu yaxşı tanıdığımız üçün bu fənni götürmək istəmirdik. Bizə dedilər ki, bu fənni götürməsəniz, heç bir fənn verilməyəcək. Məcburi şəkildə bu fənni götürdük!!! Sonra semestrin yarısında bizi buraxıb getdi.*

✠ *Dərsdə izah lazım olanda rusca izah edir, bu da bizə tam aydın olmur.*

✠ *Mənimlə çoxlu spor etsə də əla müəllimdir.*

✠ *Bu müəllim elə sanır ki, ondan yer üzündə yoxdur.*

✠ *Sual verəndə kökünə kimi gedir. Çox çürükçüdür. Adam bezir.*

✠ *Müəllimin necə yaxşı insan olduğunu yazmaqçün nə qədər söz yazsaq azdır.*

XƏZƏR UNİVERSİTƏSİNƏ NECƏ GƏLDİM

Xəzər Universitəsi artıq 17 ildir ki, ağır şəraitdə çətinliklərlə başlayan şərəfli fəaliyyətini davam etdirir. Ötən illər ərzində universitə Azərbaycan hüdudlarını aşaraq, dünyanın ən nüfuzlu universitetləri ilə hərtərəfli əməkdaşlıq edə-edə özü də beynəlxalq nüfuz qazanmış və təsadüfi deyil ki, onu Şərqin və Mərkəzi Asiyanın Harvardı adlandırırlar. 17 il əvvəl universitənin yarandığı günlərdə fizika-riyaziyyat elmləri doktoru, professor Hamlet İsaxanlının ətrafına toplaşıb onun rəhbərliyi ilə keçmiş SSRİ-də ilk özəl və ilk ingilisdilli yeni bir ali təhsil müəssisəsini həyata qovuşduran və univesitə ilə birlikdə özləri də yaşa dolan fədakar insanlar indi həmin günləri əziz, xoş xatirə kimi yada salır, qürur hissi keçirirlər. "Xəzər Xəbər" "Xəzər Universitəsinə necə gəldim" rubrikasını açaraq, onların ibrətamiz həyat hekayətlərini dərc etməyə başlayır.

Firəngiz NƏSIROVA,
Ingilis dili fakültəsinin baş müəllimi

İNAMIMIZ QALİB GƏLDİ

Ömrümün 38 ilini hər sentyabr ayında ali məktəbə yenicə daxil olan tələbələri salamlayıb, onlara ingilis dilinin incəliklərini, onu öyrənmək yollarını tədris edirəm. "Xəzər"də artıq 17-ci ildir ki, sentyabr ayında tələbələri auditoriyada qəbul edib, onlara "Xəzər"ə xos gəmisiniz, siz "Xəzər"i seçməkdə yanılmamısınız" deyirəm. Nə üçün mən bunları deməkdən yorulmuram? Çünki 17 il bundan əvvəl Xəzərdə 19 tələbə, cəmi iki otaq, öz əqidəsindən bir an geri dönməyən rektor Hamlet İsaxanlı və bu kiçik bir tədris müəssisəsinin dünya miqyaslı bir universitet olacağına inanan 5-10 nəfər müəllim var idi. "Xəzər" onu yaradanlar üçün çox vacib bir məkan – onların həyatı oldu, sanki körpəlikdən böyüdüb boya-başa çatdırdıqları bir övlad oldu.

Yaxşı yadımdadır, 1991-ci ilin noyabrında Bəylər müəllim mənə yaxınlaşıb "sizinlə ciddi söhbətim var" dedi. Onda biz Xarici Dillər İnstitutunda bir kafedrada işləyirdik. Onu da deyim, Bəylər Hacıyev mənim istedadlı tələbələrimdən biri olub. Söhbət etdik, mən diqqətlə ona qulaq asdım və təəccübümü gizlədə bilmədim: "Bəylər, ölkə dağılır, erməni - Azərbacan qarşıdurması bir yanda, ərzaq qıtlığı, ağır faciədən heç başımız açılmayıb, nə özəl universitetdən danışırsan? O nə olan şeydir? O yalnız xarici ölkədə ola bilər. Bu saat heç dövlət institutlarında dərs yoxdur, tələbələrin çoxu müharibədədir." Ancaq Bəylər xahiş etdi ki, Əhmədlidə filan nömrəli uşaq bağçasına gedim. Özüm Əhmədlidə yaşadığım üçün uşaq bağçasını asanlıqla tapdım. Lap evimizə yaxın idi. Bəylər müəllim məni qarşıladı və Xəzər Universitəsinin ilk 19 nəfər tələbəsini mənə təqdim etdi. Onlarla söhbət etdim. Tələbələrin danışığı, məntiqi, inamı məndə böyük təəssürat yaratdı.

"Bəs rektorunuz Hamlet müəllim harda oturur?" – soruşdum. Hamlet müəllimi tələbəlikdən tanıyırdım. "Hamlet müəllim xarici ölkələrdə özəl universitet idarəçiliyi ilə əlaqədar səfərdədir. Bir-iki həftə dərs deyin, gələndə söhbət edərsiniz" – deyə Bəylər izah etdi.

Ertəsi gün dərsə gəldim, məndən öncə dərs deyən Hüseynağa müəllimin qrupunda



işə başladım. Hüseynağa Rzayevi Xarici Dillər İnstitutunun prorektoru təyin etdikləri üçün o, "Xəzər"i tərk etdi. Bu 19 tələbə xeyli savadlı, öz işinə ciddi yanaşan insanlar idi. Sonralar onlar "Xəzər"in bütün tədbirlərində ən öndə gedən tələbələr oldular.

Iki həftə keçdi. Bir gün şirin dərs dediyim yerdə tələbələr birdən ayağa qalxdılar, arxam qapıya tərəf olduğundan kimin gəldiyini görmürdüm. Qapıya sarı çevrildim və gördüm ki, Hamlet müəllim həmişəki təmkini və sakitliyi ilə dayanıb bizim dərsimizə qulaq asır. Uzun müddətdən sonra ilk dəfə Hamlet müəllimi belə gördüm. Xeyli söhbət etdik, o vaxt rektor və müəllimlər elə bir otaqda otururduq. Yeməkxana yox idi, bir də görərdik ki, Roza xanım peraşki gətirib, mən də pendir - çörək. Balaca bir süfrə düzəldib, hamımız o süfrənin ətrafında söhbət edərdik. Hamlet müəllimin ideyaları bizi yeni yaradıcılığa sövq edirdi. Burada tam sərbəstlik var idi, tədrisdə interaktiv üsulunu, indi haqqında bol-bol danışılan Boloniya sistemini biz tətbiq etdik. Arakin dərsliyindən fərqli olaraq, müasir tələblərə cavab verən xarici dərsliklərdən dərs keçirdik. Mən buradakı sağlam mühitə, düşüncəyə, intellektə vuruldum. Və burada işləmək mənə ruh yüksəkliyi verdi. İki il sonra Hamlet müəllim məni Los-Anceles Universitetinə ezam etdi. Qarşılıqlı mübadilə mənim təcrübəmi püxtələşdirdi və yeni tip universitetdə işləmək mənə zövq verdi. Bu müddət ərzində xarici tələbələr üçün "Azərbaycan dili" dərsliyinin müəlliflərindən biri oldum, Vaşinqtonda Qlobal Bacılıq İnstitutunun sifarişi ilə "Hüquqlarımızın tələbi" adında qadın hüquqlarına aid dərsliyi Azərbaycan dilinə çevirdim; redaktorları Hamlet İsaxanlı və Dilşad Əliyarlıdır. Poetik tərcümələr toplusunun birinci cildində Əli Kərim, Məmməd Araz, Zəlimxan Yaqub və Hamlet İsaxanlının şerlərindən ingilis dilinə etdiyim tərcümələrim çap olundu.

Mən həmişə demişəm ki, "Xəzər"in qapısından daxil olub, bir saatdan sonra buradan işini qurtarıb gedə biləcək adama "afərin" demək olar. Bu bir möcüzədir. Sənin 1 saatın dönür olur 5-6 saat. Sən "Xəzər"dən canını "qurtara bilmirsən". Bu cazibə qüvvəsi səni elə cəzb edir ki, özün də bilmədən onun əsiri olursan. Nə qədər məşğulluq var burada, nə qədər maraqlı toplantılar, yazıb yaratmaq üçün necə gözəl şərait var burada! Bütün bunları bilənlər "Xəzər"i özlərinin ikinci evi kimi qəbul edir, müəllim-tələbə heyəti də burada yorulmadan çalışır.

İngilislərin belə bir sözü var:

Yesterday is a history,
Tomorrow is a future,
Today is a gift,
Take it and enjoy it.
(Dünən bir tarixdir, sabah gələcək,
Bu gün isə bir hədiyyə,
durmadan başla işə.)

Dünən "Xəzər"in tarixini başda Hamlet müəllim olmaqla yazanlar yazdı, sabahı "Xəzər" uğurlu bir gələcək ilə açsın, bu gün isə "Xəzər"də yaşamaq, yaratmaq, onu gələcəkdə gənc nəslə bir hədiyyə kimi vermək lazımdır.

MƏDƏNİYYƏT

GÜRCÜSTANDA AŞIQ KAMANDARIN EV MUZEYİ



Kvemo Kartli-Borçalı bölgəsindəki Bolnisi rayonunun Kəpənəkçi kəndində Gürcüstanda yaşayıb-yaratmış azərbaycanlı el sənətkarı Aşıq Kamandarın ev-muzeyi açılmışdır.

Ev-muzeyində ustad aşığa mənsub əşyalar, aşıq sənətinə aid eksponatlar nümayiş etdirilir.

Azərbaycan Aşıqlar Birliyinin Gürcüstan filialının sədri Osman Əhmədoğlu bildirmişdir ki, oktyabrın 27-də ustad sənətkarın 70 illik yubileyi təntənə ilə qeyd ediləcəkdir.

Yubileyə Azərbaycan, Özbəkistan, İran və Türkiyədən də nümayəndələr dəvət olunacaq.

"Şərq müsiqisi" seriyasından yeni əsər



Xalq artisti, bəstəkar Tofiq Bakıxanovun "Şərq musiqisi" seriyasından yeni əsəri çap olunub. İran İslam Respublikasının Azərbaycandakı səfirliyinin mədəniyyət mərkəzi tərəfindən buraxılan bu kitabda bəstəkarın "İran" və "Azərbaycan" sonataları toplanmışdır. Skripka və piano üçün nəzərdə tutulmuş bu əsərlərin bir yerdə nəşr olunması İran və Azərbaycan xalqlarının birbirinə yaxınlığının rəmzidir.

6 saylı "İran sonatası" İran xalq musiqisi mövzuları əsasında bəstələnmişdir. İran musiqisi Şərqin qədim və möhtəşəm sənətlərindəndir ki, bütün xalqlar bu mədəniyyətdən öz yaradıcılığında istifadə etmişlər. Əsərdə "Şur" muğam dəramədlərindən istifadə olunsa da, burada "Humayun" muğamının motivləri üstünlük təşkil edir.

Kitabdakı "İran sonatası" bölməsinə tarix elmləri doktoru, professor Şahin Fazil, Tofiq Quliyevin xatirəsinə həsr olunmuş "Azərbaycan sonatası"na isə sənətşünaslıq namizədi Hökumə Əliyeva giriş məqaləsi yazmışlar. Hər iki məqalədə Tofiq Bakıxanovun yaradıcılığına xüsusi münasibət bildirilməklə bu əsərlərin müasir dövr üçün əhəmiyyəti də açıqlanmışdır.

Hər iki sonata Azərbaycan musiqisinə və xalqlarımız arasında mədəni əlaqələrin inkişafına dəyərli töhfədir.

BERLİNDƏ AZƏRBAYCANLI RƏSSAMIN SƏRGİSİ AÇILACAQ

Bu il oktyabrın əvvəllərində Almaniyanın paytaxtı Berlində azərbaycanlı rəssam İsa Məmmədovun "Bakı mənzərələri" mövzusunda sərgisi açılacaqdır.

Dekabrın sonunda isə Bakıda alman rəssamların "Berlin mənzərələri" mövzusunda sərgisi keçiriləcəkdir.

"RƏFİBƏYLİLƏR" SƏNƏDLİ FİLMİNİN ÇƏKİLİŞİNƏ BAŞLANMIŞDIR



"Azərbaycantelefilm" Yaradıcılıq Birliyində "Rəfibəylilər" sənədli televiziya filminin çəkilişlərinə başlanılmışdır.

Film xalqın maarifləndirilməsində, erməni qəsbkarlarından müdafiəsində və Xalq Cümhuriyyətinin yaranmasında müstəsna xidmətlər göstərmiş Rəfibəylilər nəslinin parlaq nümayəndələrinə həsr olunmuşdur.

Sənədli filmdə sağlığında «millət atası» adına layiq görülmüş Ələkbər Rəfibəyli, milli hökumətimizin ilk səhiyyə naziri olmuş Xudadad Rəfibəyli, xalq şairi Nigar Rəfibəyli və başqalarının ömürlərinin ən maraqlı anları xatırlanacaqdır.

Çəkilişlər Bakı, Gəncə, Şəmkir və Hacıkənddə aparılır.

Filmin ssenari müəllifi Xanlar Bayramov, rejissoru Şahəddin Mayıloğlu, operatoru Nəriman Şıxəliyevdir.



Orhan Pamukun yeni romanı 3 gün içində 60 min nüsxə satıldı



Məşhur türk yazıçısı, Nobel mükafatı laureatı Orhan Pamukun bir neçə gün əvvəl Türkiyədə "'Məsumiyyət muzeyi" adlı yeni romanı satışa çıxarılıb.

Yazıçının kitablarını nəşr edən "İletişim" nəşriyyatına istinadən xəbər verilir ki, romanın ilk nəşri 100 min tirajla buraxılıb və oxucular arasında böyük maraq qazanıb.

Bir neçə gün içində kitabın artıq 60 min nüsxə satıldığını bildirən nəşriyyat rəhbərliyi, yeni nəşrin ən tezi 1 aydan sonra ərsəyə gələ biləcəyini söyləyirlər.

HƏMYERLİMİZ BEYNƏLXALQ KARİKATURA MÜSABİQƏSİNİN XÜSUSİ MÜKAFATINA LAYİQ GÖRÜLMÜŞDÜR

Avqustun 15-dən 24-dək Şimali Kiprdə "Yeniboğaziçi Pulya Festivalı" çərçivəsində Beynəlxalq "Pulya" Karikatura müsabiqəsi keçirilmişdir. Festivala 8 ölkədən 13 karikaturaçı rəssam fəxri qonaq kimi dəvət olunmuşdu. Ölkəmizi bu tədbirdə Azərbaycan Karikaturaçı Rəssamlar Birliyinin sədri Bayram Hacızadə təmsil etmişdir.

Beynəlxalq Karikaturaçılar Federasiyasının və Kipr Boğaziçi bələdiyyəsinin təşkilatçılığı ilə keçirilən tədbirdə karikatura janrının inkişafında və təbliğində göstərdikləri fəaliyyətə görə Rusiyadan Mixail Zlatkovski, Ukraynadan Vladimir Kazanevski, Türkiyədən Atila Özər, İsmail Kar, İtaliyadan Dalponte Paolo, Rumıniyadan Julian Pena Pai, Kristian Topan, Makedoniyadan Cordan Pop İliyev və Azərbaycandan Bayram Hacızadə festivalın gümüşdən hazırlanmış xüsusi mükafatına və xatirə hədiyyələrinə layiq görülmüşlər.

Şimali Kiprin lideri cənab Mehmet Əli Tələt rəssamları qəbul etmişdir. Görüş zamanı ölkə başçısına Azərbaycan karikaturasından bəhs edən "100 illik karikatura tariximiz" adlı kitab hədiyyə olunmuşdur. 9 gün davam edən tədbir ölkə mətbuatında geniş işıqlandırılmışdır.

TƏLƏBƏ SORĞUSU

✠ Sadəcə dekanlıq tapşırdığı üçün qayıbları yazır. Dekanlıq onu çox sıxışdırır, xahiş edirəm ki, onun kimi müəllimlərin qədrini bilin.

✠ Özü dərsə gecikir, amma biz gecikəndə qayıb yazır.

✠ Siz çox yaxşı insansınız, amma müəllim kimi yox. İnciməyin, amma səbriniz yoxdur, suallara cavab vermirsiniz.

✠ 20 baldan 9 yazmaq insafsızlıqdır. Bu yazdığımızı oxusun və özünə nəticə çıxartsın.

✠ Dərsi dayanmadan izah edir, bu da yorucu olur.

✠ Bəzən çox sərt, bəzən də çox sadə və səmimi olur.

✠ Müəllimdən xoşum gəlir, çünki olduqca zarafatçıldır.

✠ Həmişə mənim balımı az yazır.

✠ Qrammatikanı hər üç dildə mükəmməl başa salır.

✠ Müəllimənin uşaqlarla ünsiyyət qurmasını bəyənirəm, amma biz onu çox incitmişik. İndi bütün auditoriyada oturan tələbələr peşmandırlar. Biz onu çox sevirik.

✠ Mən həyatımda bu qədər mədəni müəllimə görməmişəm.

✠ Hər dəfə gecikəndə qayıb qoyur.

✠ Great professor, great illustrations, deep knowledge, useful and interesting lectures.

✠ Çox savadlı müəllimdir, uşaqlar onu dolayır, o da çox səbrlidir.

✠ Muzeyə getmədiyimizə görə "-" qoyub.

✠ İki dərs dalbadal danışmaq olar?! Biz bir yana, özünü fikirləşmir görəsən?

✠ Kaş ki aqressivliyi yox olsun.

✠ Boynunu tərpətmə, yana əyilmə - qurtarın bu sovet üsullu dərsi!

✠ Dərsdə özü danışıb, özü gülür. Heç nə başa düşmürük.

✠ Dərsdə hamının işinə qarışır. Niyə güldün? Niyə danışdın? Niyə kefin yoxdur?

✠ Gülə-gülə durur, fikrimiz yayınır.

✠ Hamı əla alır. Belə olmaz. Əgər sual düzəldə bilmirsinizsə, kömək edə bilərik. Xahişlərimizi nəzərə alın.

✠ Dərsi elə keçir ki, sanki gülüş teatrına gəlmişik. Zarafatları mənasızdır.

✠ Sual verirsən elə forslanır ki, elə bil bundan başqa professor yoxdur.

✠ Çox gözəl insandır. Hörmətə layiqdir. Lakin uşaqlar onun qədrini bilmir. Dərsdə pis hərəkətlər edirlər. Hörmətsizlik edirlər. Bəlkə də bir az ciddi xasiyyətli və başqaları kimi kobud davransaydı, uşaqlar ona hörmət edərdi. Məsləhətim odur ki, dərsə marağı artırsın və pis uşaqları ciddi cəzalandırsın.

✠ Bütün dərs zəngin nə vaxt vurulacağını gözləyirəm.

✠ Müəllimə haqqında fikirlərimin hamısı müsbətdir. Əgər kimsə nəsə mənfi bir şey yazarsa, əminəm ki, yalan deyir.

✠ Fənnimiz də, müəlliməmiz də əladır. Sadəcə dərsdə yuxumuz gəlir.

✠ Həm gənc, həm də savadlı olduğu üçün çox həvəs və maraqla dərs keçir.

✠ Əvvəldən belə müəllimlərimiz olsaydı, indi alim olardıq.

✠ Müəllim, mən sizin haqqınızda yaxşı yazdım, siz də mənim aktivliyimi maksimum yazın.

✠ Həm müəllim, həm də insan kimi mükəmməldir. Bir sözlə, ona pis söz yazan özü pisdir.

✠ Bu dərsə söz ola bilməz. Müəllim divara baxıb danışmasa, lap super olar.

✠ Hamıda maraq oyanıb. Bir "amma"sı var. Rus dilində olan terminləri və ya sözləri Azərbaycan dili ilə əvəz etsə, pis olmaz.

✠ Əla müəllimdir, sadəcə, dərsə vaxtında gəlsə, super olar.

✠ Bəziləri universitəni tənqid etsə də, mənim heç bir pis fikrim yoxdur.

✠ Xəzər əla universitədir, bircə qüsuru var: praktika yoxdur.

✠ Universitənin təzə çıxardığı qaydaları heç də xoşlamıram.

✠ Xahiş edirəm ki, bizim yazdıqlarımızı boş söz hesab etməyin, hamısı reallıqlardır.

✠ Burada azadlıq yoxdur. Məni həm işləməyə, həm də oxumağa qoymurlar.

✠ Maraqlı fənlər açın! Tarixə aid yox.

✠ Biz universitəni tezliklə bitirmək istəyirik, amma bizə imkan yaradılmır.

✠ İmtahanda nəzarətçilərə fikir verin ki, dabanlı ayaqqabılarla, telefonla imtahana girməsinlər. Stolun üstünə çıxıb otururlar.

✠ Burada dərs deyən müəllimlərin 90%-i əla dərs keçir.

(Ardı jurnalımızın növbəti nömrəsində)

İDMAN

İDMANÇILARIMIZIN PEKİN PARALİMPİADASINDA UĞURLU ÇIXIŞI



Pekində XIII Yay Paralimpiya Oyunlarında 18 idmançıdan ibarət milli komandamız uğurla çıxış etməkdədir.

Paralimpiadanın ilk günündə cüdoçu Ramin İbrahimov (60 kq), eləcə də üç təkanla tullanma yarışında 15 metr nəticə göstərən, yalnız Səudiyyə Ərəbistanı və Ukrayna nümayəndələrindən geri qalan Vladimir Zayets bürünc medala sahib olmuşlar.

Sonrakı günlərdə fəxri kürsüyə yüksələnlərin də hər üçü cüdoçu olub. Çəkisi 90 kiloqram olan cüdoçuların yarışında Tofiq Məmmədov finalda Rusiya, Kərim Sərdarov (100 kq) isə eyni mərhələdə Braziliya idmançısına uduzaraq gümüş medalla kifayətlənmişlər. Ən ağır çəkili cüdoçuların yarışında mübarizə aparan 28 yaşlı İlham Zəkiyev (100 kq-dan çox) 4 il öncə Afinada olduğu kimi, yenə bütün rəqiblərinə qalib gələrək, fəxri kürsünün ən yüksək pilləsinə qalxmışdır. Bununla da o, ikinci dəfə cüdo üzrə paralimpiya çempionu adını qazanmışdır. Üç təkanla tullanma yarışında mübarizə aparan 43 yaşlı idmançımız Zeyniddin Bilalov gümüş medala layiq görülüb.

Paralimpiya Oyunlarının 7-ci günündə Azərbaycanın daha bir idmançısı fəxri kürsüyə yüksəlib. Bu dəfə 2004-cü il Afina Olimpiadasının qalibi atlet Oleq Panyutin fərqlənib. 25 yaşlı həmyerlimiz uzunluğa tullanma yarışında qüvvəsini sınayıb. Altı dəfə cəhd göstərən O. Panyutin 7.06 metrlik nəticə göstərib. O, Səudiyyə Ərəbistanını təmsil edən Osamah Alşanqiti ilə eyni uzaqlığa tullanıb. Lakin idmançımız cüzi fərqlə rəqibindən geri qalıb.

Birinci yerin sahibi Hilton Langenhoven (CAR) isə O. Panyutinin Afinada müəyyənləşdirdiyi paralimpiya rekordunu təzələyib - 7.31 metr. Azərbaycanlı atlet 4 il öncə 7.25 metr tullanaraq, qızıl medala layiq görülmüşdü.

Beləliklə, 7-ci mükafatına (1 qızıl, 3 gümüş, 3 bürünc) qovuşan Azərbaycan medal qazanan ölkələrin siyahısında yenə 32-ci pillədə qərarlaşıb.

Xatırladaq ki, paralimpiadada 148 ölkə təmsil olunur. Medal qazanmış dövlətlərin siyahısında isə yalnız 56 ölkənin adı qeyd olunmuşdur. Çin komandasının başçılıq etdiyi cədvəldə (29 qızıl, 32 gümüş, 26 bürünc mükafat) MDB ölkələri və Baltikyanı respublikalardan Yalnız Rusiya (11 qızıl, 11 gümüş, 11 bürünc), Ukrayna (17 qızıl, 7 gümüş, 13 bürünc) və Belarus (2 qızıl, 3 gümüş) komandaları komandamızdan irəlidədirlər.

Güman etmək olar ki, qarşıda yeni yarışlar durur və idmançılarımız medal ehtiyatını bir qədər də artırmağa çalışacaqlar.

Qeyd edək ki, 2004-cü ildə Afina Paralimpiadasında qüvvəsini sınamış 11 idmançımız Vətənə 2 qızıl, 1 gümüş, 1 bürünc medalla dönmüşdü.


Pekin Paralimpiya Oyunlarına sentyabrın 17-də yekun vurulacaqdır.

Azərbaycanlı alpinist Kaliforniyanın ən yüksək zirvəsini fəth etmişdir

ABŞ-da yaşayan əslən azərbaycanlı alpinist Əli Sənayi Kaliforniyanın ən uca zirvəsini fəth etmişdir.

Əli Sənayi bildirmişdir ki, fəth etdiyi Vhitnaley zirvəsi (MountWhitnaley) 4421 metr hündürlükdə yerləşir və Kaliforniyanın ən mürəkkəb dağ silsiləsindən biridir.

Soydaşımız fəth etdiyi zirvəyə Azərbaycan bayrağını sancmışdır.



PARİSDƏ BEYNƏLXALQ YARIŞ

Yay tətili günlərində Parisdə ən böyük assosiasiyalardan biri olan *Ecole Phenix et Dragon* tərəfindən *Taiji Quan, Qi Gong and Kung Fu Wushu* üzrə 2-ci Beynəlxalq yarış keçirilmişdir. Yarışda 3 komanda təmsil olunurdu: *Dragon, Phoenix və Tiger*. Hər komanda kişi, qadın və yeniyetmələrdən təşkil olunmuşdu.

Qələbə uğrunda fərdi idmançılar deyil, komandalar mübarizə aparırdı, yəni hər bir iştirakçının məqsədi öz komandasına bal qazandırmaq idi.

Yarişda Fransadan 6 klub (*Association Sports de Combats et Arts Martiaux (ASCAM) Paris 4e, Academic Parisienne d'Arts Martiaux Chionois (APAMC) Paris 6e, MANTIS (Paris 5e), TESAM (Paris 12e), WUSHU FENG Drome-Ardeche, Cercle Budo Douarnenez (CBD), Douarnenez-Bretagne*), İtaliyadan *Tana dei Dragoni (Milano)* klubu və Norveçden *Norsk Foniks or Drage (NOFODRA) Oslo* klubu iştirak edirdi.



Yarışda Xəzər Universitəsinin məzunu, BI Norwegian School of Management universitetinin magistr tələbəsi Aygül İsayeva Kung Fu Wushu üzrə (məşqçi Erwan Delbarre) Norveç və Azərbaycanı uğurla təmsil etmişdir. Aygül İsayeva Praying Mantis forması olan *Tang-Lang Dı̇ Yi Lu* üzrə hər iki rəqibinə qalib gəlib, komandasına (*Tiger*) bal qazandirmışdır.

Ümumi nəticədə ***Phoenix*** komandası *34* bal hesabı ilə qalib gəmişdir. ***Tiger*** *32*, ***Dragon*** komandası isə *19* bal qazanmışdır.

Onu da qeyd edek ki, Aygül İsayeva 2007-ci ildə Osloda əsası qoyulan Norsk Føniks og Drage (NOFØDRA) klubun üzvüdür.

Əminə RZAQIZI

USAQ DÜNYASI

"Xəzər Xəbər" toplusunun məktəblilər üçün əlavəsi

ƏZİZ BALALAR, YENİ DƏRS İLİNİZ MÜBARƏK!

QƏŞƏM İSABƏYLİ

VƏTƏN – YƏNİ BİZ..

Böldüm hecaya
"VƏTƏN"İ –
"VƏ",
"TƏN".
Nə deməkdi
"VƏ"?
Nə deməkdi
"TƏN"?

Bağlayıcıdır
"VƏ" –
Dərslikdə var.
Min fikri,
Sözü
Açar,
Bağlayar.

Bəs
"TƏN"?
TƏN – BƏDƏN,
TƏN – DÜZ,
TƏN – YARI.
Hansı uyardı
Bu mənaların?

Əlbəttə
YARI,
YARI,
Yəni
TƏN!
Eləysə onda
Nədir bəs
VƏTƏN?!

"VƏ"dən qabağa –
Onlar, Sən
Və mən!
"VƏ"dən arxaya
Qalan yarı –
"TƏN".

Topla bu ayrı
"YARİ"ları sən.
Bax!
Bu birlikdən
Yaranıb
VƏTƏN.

VƏTƏN –
Yəni biz;
Bir qəlbdə
Canı!
Şimallı,
Cənublu
AZƏRBAYCANIM!

Həmid NƏCƏFQULİYEV

YOLDA HADİSƏ

(hekayə)

Mənzər xala Şuşadan qaçqın düşəndən sonra Bakıda məskunlaşdıqları yataqxananın eyvanına çıxdı. Təmiz havadan udub, həyətdə oynayan uşaqlara nəzər yetirdi. Uşaqların boruya bənzər nə iləsə oynadıqlarını gördü. Yadına bir hadisə düşdü. Xəyal onu bir anlığa on-on iki il əvvələ apardı.

... Mənzər xala bir neçə gün idi ki, gəlini və nəvələri ilə yolda idi. Hara getdiklərini bilmirdi. Oğlu orduda idi. Kəndləri işğal ediləndə uşaqları yığıb köçə qoşulmuşdu. Köç yolun kənarında düşmüşdü. Mənzər xala nəvələrini başına yığıb, özü ilə götürdüyü yavanlıqdan bir qədər onlara yedizdirdi. Yoldan əsgərlər keçir, hərbi maşınlar o yan-bu yana ötürdülər. O, kəndlərinə tərəf gedən maşınları həsrətli baxışları ilə yola salır, xəyalında özünü nəvələri ilə bu maşınlardan birində görür, Allaha yalvarırdı ki, onu öz evinə qaytarsın, öləndə rahat ölə bilsin.

Yolun kənarında bir yük maşını dayandı. Əlində avtomat olan cavan bir zabit maşındakı erməni əsirlərini düşürtdü, onlara əmr etdi ki, sürücüyə kömək edib maşının təkərini düzəltsinlər. Mənzər xala fikirləşdi ki, bəlkə elə onun kəndini işğal edənlər bu ermənilər imiş.

Zabit yaxınlıqdakı gözətçi köşkündən harasa zəng vurmağa getmişdi. Əsir ermənilərdən biri gizlicə aralanıb nə vaxtsa buraya atılmış iri su borularından biriniin içinə girdi. Mənzər xala bunu gördü. Sən demə, məktəbyaşlı nəvələri də əsirin hərəkətlərini izləyirlərmiş. Onlar oğrun-oğrun boruya yaxınlaşdılar. Boru enli olsa da, bir tərəfdən ağzı qapalı və qısa idi. Uşaqlar oynayırmış kimi, borunu diyirlədə-diyirlədə yolun kənarından yaxınlıqdakı uçuruma tərəf apardılar. Mənzər xala birdən nəvələrinin niyyətini başa düşdü. Uşaqlar borunu içindəki erməni ilə uçuruma yuvarlatmaq istəyirdilər. O, sanki yatmışdı, yuxudan ayıldı. Özünü hövlnak nəvələrinə tərəf atdı,onlara elə bir vaxtda yetişdi ki, artıq boru uurumun ağzında idi. Uşaqlar nənələrini bu vəziyyətdə görüb əl saxladılar."Ay balam, nə edirsiniz, bəlkə onun da balaları var, yolunu gözləyəni var, cəzasını hökumət özü verər" – deyə, Mənzər xala nəvələrini sakitləşdirdi.

Uşaqlar didərginliklərinin intiqamını ala bilmədiklərinə görə məyus olmuşdular. Bu vaxt zabit özünü yetirdi. Əsim-əsim əsən ermənini borunun içindən çıxarıb maşına tərəf apardı...

GÜLBALANIN LƏTİFƏLƏRİ

Gülbala məktəbdən evə gələn kimi, valideynlərinə deyir:

– Heç bilmirəm, müəllimimizin niyə belə xoşuna gəlmisiniz, o yenə də sizi görmək istəyir.

****

Müəllim:

– Gülbala, bu sözlər hansı zamana aiddir: mən qaçıram, sən qaçirsan, o qaçır, onlar qaçırlar?

– Tənəffüsə!

****

Müəllim:

– Gülbala, əgər sənin bir dolların varsa və atan sənə bir dollar da versə, sənin nə qədər pulun olar?

– Bir dollar, müəllim!

– Sən heç adi hesabı da bilmirsən.

– Müəllim, siz də mənim atam barədə heç nə bilmirsiniz.

****

– Sakit! – müəlim deyir. – elə sakitlik yaransın ki, milçəyin vızıltısı belə eşidilsin!

Bütün şagirdlər cınqırlarını belə çıxarmadan səssiz otururlar. Heç bir dəqiqə keçməmiş hövsələsi çatmayan Gülbala pıçıltı ilə soruşur:

– Müəllim, bəs milçəyi nə vaxt buraxacaqsınız?

****

Gülbala yatmazdan əvvəl yerinin içində öz-özünə deyir:

– Kaş Paris Almaniyanın paytaxtı olaydı...

Anası təəccüblə soruşur:

– Gülbala, sən nə`danışırsan?

– Anacan, axı mən coğrafiyadan yoxlama işində belə yazmışam.

****

Gülbala məktəbdən evə gözünün altı göyərmiş halda gəldi.

– Yenə dalaşmısan? – deyə, anası hirsləndi. – Məgər mən sənə deməmişəm ki, əsəbiləşəndə yüzə qədər say, sonra qərar qəbul elə?

– Anacan, demisən, amma məsələ bundadır ki, dalaşdığım oğlanın anası ona əlliyə qədər saymağı tapşırıbmış.

****

Müəllim:

– Gülbala, babana de ki, sabah məktəbə gəlsin!

– Müəllim, bəlkə "atam" demək istəyirsiniz?

– Yox, baban gəlsin. Mən göstərmək istəyirəm ki, onun oğlu sənin ev tapşırıqlarını yerinə yetirərkən hansı səhvlərə yol verir.

TAPMACALAR

1

Ağ çala, qara toxum,
Əlim ilə əkərəm,
Dilim ilə biçərəm.

2

Bir ağacım var, on iki budağı,
Hər budağın otuz yarpağı
Yarpağın bir üzü ağ, bir üzü qara.

3

Bir qapağı,
Min yarpağı.

4

Bir kişinin dörd evi var,
Biri yaşıl, o biri al,
Biri sarı, o biri ağ.

5

Qara çadır açıldı,
İçindən nur saçıldı.

6

Dağlarda qar əridi,
Ayaq tutub yeridi,
Dərə görüb çığırdı,
Dərya görüb kiridi.

7

Nə əli var,
Nə ayağı,
Qapı açar
Dəlisayağı.

8

O necə ağacdır ki,
Gündə bir yarpaq salır.

9

Haĺalar ha halalar
Dağda ceyran balalar.
Quşlardan hansı quşdur,
Yumurtasız balalar.

Tapmacaların cavabı jurnalın gələn nömrəsində veriləcəkdir.

ƏDƏBİYYAT LÜĞƏTİ

Gəlin, öyrənək!

EVİSTİKA - müxtəlif səciyyədə olan ədəbiyyatşünasliq axtarışlarının məcmusu. Əksər vaxt fərdi səciyyə daşıyır: bir əsərin müəllifini, ya bir əsərin tarixini, bir məktubun kimə yazıldığını müəyyənləşdirmək; bioqrafik tədqiqat; prototiplərin axtarılması və s. Evristika tədqiqatı mənbələrin öyrənilməsinə əsaslanır.

EVFEMİZM - əşyanı, hadisə və hərəkəti, yaxud şəxsi öz əsil adı ilə deyil, daha yumşaq, daha nəzakət və hörmətlə təsvir edən məcazi ifadələr. Evfemizm həm də cəmiyyətdə deyilməsi münasib olmayan, xoşagəlməz, kəskin, qaba sözlərin əvəzinə başqa münasib sözlər işlətmək prinsipinə əsaslanır.

EZOP DİLİ - bu ifadə qədim Yunanıstanda öz fikirlərini açiq deyə bilmədiyinə görə məcazi təmsillər yazan Ezopun (e.ə.6-5 əsrlər) adı ilə bağlıdır.Məcburiyyət nəticəsində qəsdən üstüörtülü, dumanlı şəklə salınmiş, işarələr və kinayələrlə dolu ifadə tərzi.

EYDİYYƏ - türk şeirində ərəbcə " bayram" mənasını verən "eyd" sözündən yaranıb. Bayram günlərində hökmdarları və başqa böyük şəxsiyyətləri tərif edən qəsidə növü.

EYHAM - kinayə məqsədilə işlənən ikibaşlı söz, incə işarə.

EKLOQA - antik şeir janrının adı. Bu janrda yazılan şeirdə müəllif öz fikir və hisslərini çobanların, yaxud sıravi kəndli kimi personajların dialoqu vasitəsilə ifadə edir.

EKSPRESSİONİZM - Avropanın burjua aləmindəki böhranını əks etdirən ədəbiyyat və incəsənət cərəyanı. Bu cərəyana məxsus sənətkarlar, əsasən, humanizmi təbliğ edir, imperialist qəsbkarlığın əleyhinə çıxırdılar.

EKSPROMT - şairin bilavasitə bir hissin, yaxud gözlənilməz halda başına gələn güclü, mühüm bir fikrin təsiri ilə şifahi, ya da yazılı surətdə yaratdığı kiçik, çox vaxt zarafatyana şeir.

ELEGİYA - antik yunan ədəbiyyatında lirik şeir növü. Adətən, şadlıq və kədər hisslərinin üzvi surətdə birləşdiyi elegiyalar olduğu kimi, şairin yalnız qəmli düşüncələrini ifadə edən elegiyalar da vardir. Formasında, həcmində və qafiyə quruluşunda müəyyənlik olmasa da, antik poeziyada elegiya iki beytdən, sonrakı dövrlərdə isə çox vaxt 8-20 misradan (iki-beş bənddən) ibarət olmuşdur.

ELEN - qazax poeziyasında hər misrası 2 hecadan ibarət dörd misralıq şeir bəndi. Qafiyələri belədir: *qaba*.

EPİQRAF - qədim yunanların abidələr üzərindəki yazılara verdikləri ad. Sonralar bu söz mənasını dəyişmiş, yazıçıların öz əsərlərinin əvvəlində və ya əsərin fəsillərinin başında başqa bir müəllifdən, yaxud folklordan gətirdiyi sitata epiqraf adı verilmişdir.

EPİLOQ - əsərin sonunda verilən hissə. Şərq ədəbiyyatında epiloq "xatimə" adlanır.Yazıçı əsərin sonunda – epiloqda təsvir etdiyi qəhrəmanların taleyi və aqibətini yığcam şəkildə ifadə edir.

EPİTAFİYA - kitabə-mənzum şəkildə olan qəbirüstü yazı.

EPİTET - məcazın bir növü. Ədəbi əsərdə bədii sözü qüvvətləndirmək və mənaca zənginləşdirmək üçün ona əlavə edilən sifət; hadisələrin, şəxsin, əşyanın hər hansı bir keyfiyyətini aydınlaşdıran, təyin edən söz.

EPOPEYA- epik ədəbiyyatın ən iri və əzəmətli formasına verilən ad.

ESSE - tənqid və ədəbiyyatşünaslığın müəyyən bir problemini sərbəst surətdə izah etməsi ilə fərqlənən janr. Essenin müəllifi seçdiyi problemi (ədəbi, etik, fəlsəfi və s.) təhlil və ya izah edərkən ifadə tərzinin sistemi, ardıcıllıq, gəldiyi nəticələrin əsaslı, hamı üçün eyni dərəcədə məqbul olması qayğısına qalmır.

Hazırlayanı:
Bəhlul ABDULLA

KİTABXANAMIZIN YENİ KİTABLARI




Basic Principles for the Settlement of the Conflicts on the Territories of the GUAM States: Materials of the International Conference, Baku, 15-16 April 2008. – Baku: CBS Publishing House, 2008. – 176 p.
– ISBN 978-9952-8123-0-5



Japanese for Busy People I: Kana Version includes CD / Association for Japanese - Language Teaching. – Rev. 3rd ed. – Tokyo: Kodansha International, 2006. – 271 p.
– ISBN 978-4-7700-3009-2

Islam R. World Trade Indicators 2008: Benchmarking Policy and Performance / R.Islam, G.Zanini. – Washington, DC: World Bank, 2008. – 121 p.
– ISBN 978-0-8213-7567-9



Minna no Nihongo I. Translation & Grammatical Notes. Tokyo: 3A Corporation, 2008. – 189 p. – ***ISBN 978-4-99319-107-9***





Mitra P. Innovation, Inclusion, and Integration: From Transition to Convergence in Eastern Europe and the Former Soviet Union. – Washington, DC: World Bank, 2008. – 144 p.
– ISBN 978-0-8213-7538-9



Kodansha's Furigana Japanese Dictionary: Japanese-English English-Japanese. – Tokyo: Kodansha International, 1999. – 1285 p. – ***ISBN 978-4-7700-2480-0***

The Little Data Book on Information and Communication Technology 2008. – Washington, DC: World Bank, 2008. – 230 p. –
ISBN 978-0-8213-7399-6




Русско-японский словарь / под ред. М.Того и др. – Токио: Кэнкюся, 1988. – 2764 с.





Lind D. Statistical Techniques in Business & Economics with Global Data Sets (with Student CD) / D. Lind, W. Marchal, S.Wathen. – 13th ed. – New York: McGraw - Hill/Irwin, 2008. – 860 p.
–ISBN 978-0-07-110151-6



Robbins Basic Pathology / edited by V.Kumar. – 8th ed. – Philadelphia: Saunders Elsevier, 2007. – 946 p.
–ISBN 978-1-4160-2973-1

Hazırlayanı: **Lyudmila SOTOVA**

KHAZAR VIEW

XƏZƏR XƏBƏR

Öz ciddi məzmunu və rəngarəngliyi ilə seçilən
"Xəzər Xəbər" toplusu yenə sizin görüşünüzə gəlib.
"Xəzər Xəbər"də Azərbaycan, rus, ingilis,
türk və başqa dillərdə dərc olunan maraqlı xəbərlər,
ali və orta təhsil haqqında yeniliklər,
poeziya və ədəbiyyat səhifələri, məzəli əhvalatlar,
elmi əsərlər, siyasətə, mədəniyyətə, idmana aid yazılar, qəribə
sevgi macəraları, uşaq yaradıcılığı, maraqlı yarışlar -
müsabiqələr və s. könlünüzcə olacaq.
"Xəzər Xəbər" gənclərin və oxuyan,
düşünən hər kəsin dərgisidir.
"Xəzər Xəbər"i İNTERNET vasitəsilə dünyanın
hər yerində oxuyurlar.
"Xəzər Xəbər"i siz də oxuyun!
"Xəzər Xəbər"ə siz də yazın!
"Xəzər Xəbər"i şəhərimizdəki qəzet-jurnal
köşklərindən ala bilərsiniz.
"Xəzər Xəbər" ayda iki dəfə çıxır.

Ünvan: Bakı şəhəri,
Məhsəti küçəsi, 11.
Əlaqə telefonları: 421-79-16
421-10-93.
E-mail: xazarxabar@khazar.org